RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 182 (8775) BAZAR, 29 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İlham Əliyevin yeni əməkdaşlıq formatı təqdir edilir

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazdakı vəziyyət dəyişib və regionun gələcək inkişafı üçün nadir imkanlar yaranıb. Bu imkanlar xüsusən də yeni kommunikasiyaların açılmasını, nəqliyyat dəhlizlərinin yaradılmasını şərtləndirir. Region ölkələrinin birgə əməkdaşlığı sayəsində həyata keçiriləcək müştərək layihələr əlbəttə ki, ilk növbədə bölgənin sürətli inkişafı üçün real zəmin yarada bilər.

Yeni reallıqları dəyərləndirən Prezident İlham Əliyev də məhz bu prinsipləri nəzərə alaraq regionda yeni "3+3" əməkdaşlıq formatının yaradılması təklifini irəli sürüb. Bu, Azərbaycan, Türkiyə, Rusiya və İran, Gürcüstan, Ermənistan əməkdaşlığını nəzərdə tutan platformadır.

Artıq xeyli müddətdir ki, Azərbaycan Prezidentinin təklifi geniş müzakirə mövzusuna çevrilib. İqtisadçılar, siyasətçilər də birmənalı olaraq qeyd edirlər ki, bu format ilk növbədə bölgənin gələcəkdə təhlükəsizliyini gücləndirə bilər.

### Ermənistan Azərbaycanla hesablaşarsa...

Bəllidir ki, Azərbaycan məğlub Ermənistan istisna olunmaqla qonşu ölkələrlə hər zaman əməkdaşlıqda maraqlı olub və indiyə qədər müxtəlif layihələr həyata keçirib. Ölkəmizin Türkiyə, Rusiya, İran və Gürcüstanla birlikdə reallaşdırdığı müxtəlif beynəlxalq layihələr ilk növbədə Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Məhz bu layihələr iqtisadiyyatımızın sürətli inkişafında mühüm rol oynayıb.

Prezident İlham Əliyev müharibədən sonrakı bütün çıxışlarında bəyan edir ki, regionun inkişafı naminə icra ediləcək hər bir layihə özündən sonra digər layihənin reallaşmasına real zəmin yarada bilər. Ona görə də ilk növbədə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və sülh müqaviləsinə imza atmalıdır. Belə olan təqdirdə "3+3" formatı reallaşa bilər. Bu formatın reallaşması ilk növbədə Ermənistanın düşdüyü acınacaqlı durumdan qurtuluşu ola bilər.

Prezident İlham Əliyev də vurğulayır ki, Ermənistan Azərbaycanla hesablaşarsa, yeni formatın yaranması ilə bağlı danışıqlar aparmaq olar. Bu gün artıq nikbinliyə səbəb olan digər amil odur ki, qonşu dövlətlər də Azərbaycanla eyni mövqeni bölüşür. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı fikir ayrılığı yoxdur. İlham Əliyev deyir ki, əgər təkcə Zəngəzur dəhlizinə fikir versək, bunun Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistan və Gürcüstanın maraqlarına cavab verdiyini aydın şəkildə görə bilərik. Yəni bu dəhlizin yaradılması, işə düşməsi ilə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Ardı 2-ci səh.

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl medallar qazandıran idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı "Twitter"dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Milli Paralimpiya komandamızın üzvləri - Şəhanə Hacıyeva, Vüqar Şirinli və Raman Salehi "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qələbə sevincini yaşatdıqlarına görə ürəkdən təbrik edir, onlara və komandamızın digər üzvlərinə bundan sonra da yalnız uğurlar arzulayıram!"

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı "Twitter"dəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Tokio-2020" Yay Paralimpiya Oyunlarında komandamızın qazandığı qızıl medalların sayı altıya çatmışdır. Bu münasibətlə növbəti qızıl medallar qazanmış Sevda Vəliyeva, Xanım Hüseynova və Hüseyn Rəhimlini səmimi-qəlbdən təbrik edir və komandamıza yeni-yeni nailiyyətlər arzu edirəm!"

## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında uğur qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl və bürünc medallar qazandıran idmançılarımızı təbrik edib.

Bax: səh. 2



## İlham Əliyev Şuşanın şöhrətini qaytarır



"...Tarixi bərpa edirik..." 2021-ci il martın 15-də Ali Baş Komandan İlham Əliyev Şuşaya ikinci səfəri zamanı Molla Pənah Vaqifin vəhşi ermənilər tərəfindən dağıdılan və hazırda bərpa olunan muzey-məqbərə kompleksi önündə səsləndirmişdi bu fikirləri...

Bəli, həm də tarix təkrar olunurdu və illər əvvəl Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən və açılışı həyata keçirilən bu məqbərə yenidən Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bərpa olunur, əvvəlki əzəmətinə qovuşur...

### Ulu Öndər Şuşada Vaqifin şəninə yaraşan bir məqbərə ucaltdırdı

Zaman 1967-ci il, məkan isə Şuşa şəhəri idi...

Klassik ədəbiyyatı dərindən bilən və yüksək qiymətləndirən böyük şəxsiyyət Heydər Əliyev Qarabağın baş tacı Şuşada olarkən görkəmli şair Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin məzarı tapılmamışdı.

Ardı 3-cü səh.

## Dövlət onların, onlar dövlətin dayağıdır

### Prezident İlham ƏLİYEV: "Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir"

Biri 1890, digəri isə 1152 mənzildən ibarət olan daha iki kompleksdə şəhid ailələri, müharibə əlilləri və Vətən Müharibəsi qəhrəmanları yaşayacaqlar.

Bir neçə gün əvvəl Abşeron rayonundakı həmin komplekslərdə 300 mənzil sahiblərinə təqdim olundu. Eyni vaxtda müharibə əlillərinə 50 avtomobilin açarları verildi.

Təqdimolunma mərasimində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirak etməsi şəhid ailələri üzvlərinin və qazilərin sevincinə səbəb oldu. Bu, eyni zamanda dövlət başçısının və Mehriban xanım Əliyevanın həmin kateqoriyadan olan insanlarla növbəti səmimi görüşü idi.

Şəhid ailələri və müharibə əlillərinin sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil, həmçinin müasir reabilitasiya vasitələri ilə təminatı istiqamətində görülən işlər davamlı xarakter daşıyır. Bu istiqamətdə Heydər Əliyev Fondu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mühüm sosial tərəfdaşlarından biridir. Bu tərəfdaşlıq çərçivəsində indiyədək bir çox sosialyönümlü layihələr həyata keçirilib. Belə ki, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunub. Prezident İlham Əliyevin bu ilin yanvar ayında imzaladığı sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilib. 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Son 7 ayda 52 min nəfər şəhid ailəsi üzvü və müharibə veteranı işlə təmin olunub, 7 min 200 nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb edilib. Bu ilin əvvəlindən indiyədək 26 min 200 nəfər reabilitasiya vasitəsilə təmin olunub, 2600 nəfərə isə reabilitasiya xidmətləri göstərilib. Bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artıb.

Ardı 5-ci səh.

## Azərbaycan beynəlxalq birliyin gündəliyində duran qlobal məsələlərə diqqət yetirir

### Azərbaycan Prezidenti BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisini qəbul edərkən bu vacib məsələni bir daha xatırlatdı

Çoxqütblü dünyanın idarə edilməsi həm də mövcud beynəlxalq birlik və təşkilatların tutduğu mövqedən asılıdır. Təbii ki, bir sıra məhəlli, regional və beynəlxalq problemlər var ki, onların həllində həmin nüfuzlu təşkilatlar mühüm rol oynamalıdırlar. Belə beynəlxalq missiya daşıyan qurumlardan biri də Birləşmiş Millətlər Təşkilatıdır ki, Azərbaycan onunla 29 ildir əməkdaşlıq edir.

BMT dünyanın inkişaf etmiş ölkələri ilə sıx əmədaşlığa üstünlük verir və müəyyən mənada sözü də keçərlidir. Azərbaycan ictimaiyyəti bu təşkilatı əslində Ermənistanın təcavüzkar siyasəti nəticəsində ərazilərinin 20 faizinin işğalından sonra (422 saylı ilk qətnamə Kəlbəcərin işğalı ilə bağlı qəbul edilib) qəbul etdiyi 4 qətnamə ilə tanıdı. Açığı, Ermənistanın təcavüzkar siyasəti ilə bağlı qəbul edilən həmin qətnamələrin icrasına nail olmadığı üçün Azərbaycan xalqı bu qurumun fəaliyyətindən ciddi narazı qaldı.

Ardı 2-ci səh.




## XVI Tokio Yay Paralimpiya Oyunları




### Paracüdoçularımız daha 3 qızıl medal qazandılar

Tokioda Yay Paralimpiya Oyunları davam edir. Dünən paracüdo yığmamızın üç təmsilçisi tatami üzərinə çıxıb. "Neftçi İdman Klubu"nun yetirməsi olan hər üç idmançı yarışa 1/4 finaldan başlayıb və çıxışını qələbə ilə başa vurub. Sevda Vəliyeva (57 kq), Xanım Hüseynova (63 kq) və Hüseyn Rəhimli (81 kq) bütün rəqiblərinə qalib gələrək Paralimpiya çempionu tituluna yiyələniblər. Bununla da millimizin aktivindəki medalların sayı 8-ə çatıb. Onlardan 6-sı qızıl, 2-si bürünc mükafatdır.

Ardı 8-ci səh.

## Neftçala aydınlığa qovuşur

### Rayona su çəkilişi davam edir



Təbiətin işini heç kəs tamam-kamal bilmir. Təxminən 15-20 il əvvəl Kür çayının aşıb-daşaraq məcrasına sığmadığı, sahilboyu şəhər və kəndləri, evləri, bağ-bağatları, əkin sahələrini sel sularının necə çənginə aldığı, təbii fəlakətə qarşı dövlət səviyyəsində təxirəsalınmaz tədbirlər görüldüyü bu gün də adamların yaxşı yadındadır.

Bax: səh. 5

# Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında uğur qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl və bürünc medallar qazandıran idmançılarımızı təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin bununla bağlı "Instagram" hesabında etdiyi paylaşımda deyilir:





























"Bizim idmançılarımızı - qızıl medal sahibləri Şəhanə Hacıyeva, Vüqar Şirinli, Saleh Raman, Sevda Vəliyeva, Xanım Hüseynova, Hüseyn Rəhimlini, bürünc medal sahibləri Pərvin Məmmədov və Namiq Abaslını parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Mükəmməl fiziki hazırlıq və yenilməz qələbə əzmi nümayiş etdirərək, siz Azərbaycanı "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında layiqincə təmsil etdiniz. Əldə etdiyiniz yüksək nəticələr sizin bacarığınızın, əla səviyyədə hazırlığınızın, məqsədyönlülüyünüzün və iradənizin əyani sübutudur. Sizin hər birinizə və milli paralimpiya yığmamızın digər üzvlərinə möhkəm cansağlığı, yeni nailiyyətlər diləyir və ən xoş arzularımı çatdırıram".

# İlham Əliyevin yeni əməkdaşlıq formatı təqdir edilir

*Əvvəli 1-ci səh.*

Bu yaxınlarda amerikalı mütəxəssis Endryu Korıbko da İlham Əliyevin təklifini dəyərləndirərkən vurğulamışdı ki, Azərbaycan-Rusiya-Ermənistan və Türkiyə-İran-Gürcüstan "3+3" prinsipi, xüsusilə, münaqişədən sonrakı regional ssenarinin formalaşdırılmasında çox təsirli ola bilər.

Onun fikrincə, Naxçıvan dəhlizi münaqişənin son həllinə görə misilsiz bir inkişaf və inteqrasiya imkanları təmin edərək, bölgənin coğrafi-iqtisadi potensialında inqilab edəcək. Buna görə, Ermənistanın atəşkəsə hörmət etməsini və məsələnin hərtərəfli həll olunmasını təmin etmək üçün birlikdə çalışmaq hər bir regional tərəfin maraqlarına cavab verir: "Hər iki tərəf üçün qazanclı ola biləcək bu ssenarini pozan yeganə əngəl İrəvandakı ultra-milliyyətçilərdir və bütün regional tərəfdaşlar, xüsusən də Moskva onlara deməlidir ki, gələcək problemləri qızışdırmaq tamamilə qəbuledilməzdir".

Təəssüf ki, Ermənistandakı təxribatçı qüvvələr bu formatın reallaşmaması üçün əllərindən gələni edirlər.

İlham Əliyev isə vurğulayır ki, əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən qəbul edilən ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda, əlbəttə, bölgəyə uzunmüddətli sülh gələcək. Buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi iki ölkənin də maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi Ermənistanın da maraqlarına xidmət edəcək. Belə ki, dəhliz fəaliyyətə başlayandan sonra Ermənistan dəmir yolu vasitəsilə həm İranla, həm də Rusiya ilə əlaqə yarada biləcək. Bu günə qədər bu əlaqə yoxdur. Əgər dəhliz açılarsa, Ermənistan üçün yeni fürsətlər ortaya çıxacaq.

## Regionda iqtisadi əməkdaşlıq və təhlükəsizlik güclənəcək

Mütəxəssislər hesab edirlər ki, İlham Əliyevin təklif etdiyi "3+3" əməkdaşlıq formatının ideyası, əsasən, Azərbaycan, Türkiyə və Rusiya əməkdaşlığını nəzərdə tutur. Amma İran, Gürcüstan və Ermənistanın bu əməkdaşlıqda iştirakı bölgənin perspektiv təhlükəsizliyini gücləndirə bilər. Bu həm də iqtisadi əməkdaşlığın işğaldan, bir-birinə qarşı ərazi iddiasından perspektivli olduğunu ortaya qoya bilər. Çünki Azərbaycan, Türkiyə, Gürcüstan arasında regional əməkdaşlıq öz bəhrəsini verib.

"CNN Türk" kanalına müsahibəsində Prezident İlham Əliyev bu formatın perspektivini dəyərləndirərkən ümid etdiyini vurğulayıb ki, digər ölkələr də buna qoşulacaqlar. Ancaq reallıq budur ki, Gürcüstan tərəfi hələ buna hazır deyil. Çünki Gürcüstanla Rusiya arasında diplomatik münasibətlər yoxdur. Amma buna baxmayaraq, regional işbirliyi, sabitliyin təmin olunması və gələcəkdə müharibə riskinin sıfra endirilməsi üçün bölgə ölkələri arasındakı əlaqələr çox önəmlidir. Burada konkret layihələr də müzakirə oluna bilər. Çünki bu, sadəcə olaraq, siyasi təşəbbüs deyil: "Burada, ilk növbədə, Zəngəzur dəhlizinin və digər yolların açılması, - çünki təkcə Zəngəzur dəhlizindən söhbət getmir, - bizim Ermənistanla digər nəqliyyat layihələrimiz ola bilər. Ondan sonra ticarət əlaqələrinin bərpası, Cənubi Qafqazda uzunmüddətli sülhün təmin edilməsi. Yəni bütün bunlar çox önəmli məsələlərdir. Çünki biz artıq öz tarixi missiyamızı yerinə yetirdik. Bizə yeni müharibə lazım deyil".

Qonşu İran İslam Respublikasının da bu formatda iştirakı müzakirə mövzusudur. İlham Əliyev "CNN Türk" kanalına müsahibəsində bu məsələyə də toxunaraq qeyd etmişdi ki, İranda indi yeni rəhbərlik hakimiyyətə gəlib və hazırda onların bölgə ilə bağlı siyasəti formalaşmaqdadır. Əlbəttə ki, həm Azərbaycanla, həm də qonşu ölkələrlə bağlı ilkin bəyanatlar müsbətdir. Ancaq yeni rəhbərliyə bu məsələ və Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı öz siyasətini ortaya qoyması üçün vaxt lazımdır. Yaxın zamanlarda İranın mövqeyi bəlli olduqdan sonra məsələ gündəmə gələcək.

## Yeni format "Zəngəzur dəhlizi" də daxil olmaqla, nəqliyyat arxitekturasını dəyişmək gücündədir

Postmüharibə dövrü müharibə dövrü qədər çətin olmasa da, qeyri-müəyyən bir dövr sayılır. Çünki heç kim əvvəlcədən bu dövrdə proseslərin necə inkişaf edəcəyini müəyyənləşdirə bilməzdi.

Amma bütün çətin dövrlərdə verdiyi qərarlarla, həyata keçirdiyi islahatlarla Azərbaycanın qurtuluşunu təmin edən İlham Əliyev bu dövr üçün də hədəflər müəyyənləşdirmişdi. İndi Azərbaycan öz iqtisadi qüdrətindən yararlanmaqla postmüharibə dövrünün reallıqları əsasında inkişafını davam etdirir. Yəni İlham Əliyevin müharibədən sonra gələcək addımlarla bağlı müəyyənləşdirdiyi "yol xəritəsi" ilə Azərbaycan Cənubi Qafqazdakı mövqeyini getdikcə daha da gücləndirir. Zəngəzur dəhlizinin açılması isə ölkəmizin iqtisadi qüdrətini daha da yüksəldəcək.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının fikrincə, "3+3" formatı ölkələrinin kəsişmə coğrafiyası - özəyi Cənubi Qafqaz, kənar halqası isə Rusiya, Türkiyə və İrandır. Azərbaycan Cənubi Qafqazın siyasi, iqtisadi və hərbi cəhətdən lideri olmaqla, bu formatın həm özəyində, həm də kənar halqasında həlledici mövqeyə malikdir. Azərbaycan Qarabağ münaqişəsini uğurla həll etməklə, Cənubi Qafqazda sülh, təhlükəsizlik və inkişaf üçün zəmin hazırlayıb və "3+3" formatına əsaslar yaradıb.

İlham Əliyevin təklif etdiyi yeni format iqtisadi baxımdan böyük potensial vəd edir. Xüsusən də qarşılıqlı sərmayə qoyuluşu, sənaye, aqrar və xidmət sektorunda əməkdaşlıq imkanları genişdir. Bu format "Zəngəzur dəhlizi" də daxil olmaqla, nəqliyyat arxitekturasını dəyişmək gücündədir. Xüsusən də Azərbaycanın su, hava, avtomobil və dəmir yolu nəqliyyat infrastrukturu altılıq ölkələrinin inteqrasiyasında mərkəzi mövqeyə malik ola bilər. Çünki Azərbaycanın regionun cənub və şərq hissəsində mövqelənməsi nəqliyyat infrastrukturunun həm meridianlar, həm də en dairələri üzrə şaxələnməsini təmin edir.

Beləliklə, İlham Əliyevin irəli sürdüyü və Rusiya, Türkiyə tərəfindən dəstəklənən yeni əməkdaşlıq platforması Ermənistan qarşısında artıq qurulu olan regional iqtisadi əməkdaşlıq sisteminin qapılarını açır. Əslində, Ermənistanın başqa bir alternativi də yoxdur. Reallıq ondan ibarətdir ki, əgər Ermənistan iqtisadiyyatını dirçəltmək və ölkə əhalisini acınacaqlı durumdan qurtarmaq istəyirsə, məhz Azərbaycan Prezidentinin təşəbbüsü ilə qurulan platformaya qoşulmalıdır. Əks təqdirdə, yenə də uduzan tərəf Ermənistan olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan beynəlxalq birliyin gündəliyində duran qlobal məsələlərə diqqət yetirir

*Əvvəli 1-ci səh.*

Lakin bütün hallarda millətlərin taleyində mühüm humanitar missiya daşıyan BMT ilə sıx əməkdaşlıq Azərbaycan dövlətinin xarici siyasətinin prioritetinə çevrildi.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva təyinatı ilə bağlı məktubu avqustun 24-də Prezident İlham Əliyevə təqdim edərkən dövlətimizin başçısı bir daha bu vacib məsələni diqqətə çatdırdı: "Bildiyiniz kimi, Azərbaycan həmişə BMT-nin fəal üzvü olmuşdur. Biz təqribən on il bundan əvvəl beynəlxalq birliyin böyük dəstəyi ilə, hətta Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir və bu da Azərbaycanın beynəlxalq nüfuzunu və fəal xarici siyasətini nümayiş etdirirdi. İkiillik sədrlik dövründə biz mühüm məsələlərlə bağlı təşəbbüslər irəli sürdük və beynəlxalq birliyin gündəliyində duran vacib qlobal məsələlərə toxunduq. İndi isə BMT-dən sonra ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri kimi biz beynəlxalq münasibətlər sistemində mühüm rol oynayırıq və BMT baş katibinin təşəbbüslərinə dəstək oluruq, xüsusilə COVID ilə mübarizə sahəsində..."

Ölkəmizin sülhə və təhlükəsizliyə töhfə verməyə çalışdığını deyən Azərbaycan Prezidenti, eyni zamanda, BMT ilə əməkdaşlığın haradan başlamasına diqqət çəkdi. Dövlət başçısı qonağın nəzərinə çatdırdı ki, BMT ilə fəal qarşılıqlı əlaqəmiz Ermənistanın təcavüzü nəticəsində başlayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının məşhur qətnamələrinin qəbulunu isə müsbət qarşılamışdıq. Bu, çox müsbət addım, erməni təcavüzünə toxunularaq bizə dəstəyin ümidverici bir jesti idi. Beynəlxalq səviyyədə tanınan ərazilərimizdən erməni qoşunlarının dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının çox mühüm siyasi bir jesti idi. Lakin əfsuslar olsun ki, bu qətnamələr icra olunmadı.

Azərbaycan Prezidenti vurğuladı ki, xüsusilə bizi narahat edən və cəmiyyətin anlamaqda çətinlik çəkdiyi məsələ o idi ki, bu qətnamələri qəbul edən Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkədən üçü (ABŞ, Fransa və Rusiya) ATƏT-in Minsk qrupuna həmsədrlik edirlər. Onlar özləri bu qətnamələri qəbul ediblər. Bu qətnamələrin həyata keçirilməsinə imkan yaratmaq üçün onların mandatı var idi: "Lakin əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu çox imkanları əldən verib. Bir çox hallarda mən Ermənistana qarşı sanksiyaların tətbiq edilməsi məsələsini qaldırmışdım. Çünki düşünürdüm ki, bu, toqquşmanın, müharibənin qarşısının alınması üçün bir yol ola bilərdi. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik. Ötən il, müharibədən cəmi bir neçə gün əvvəl, Baş Assambleyada çıxış edərkən mən beynəlxalq birliyi xəbərdar edərək, Ermənistanın müharibəyə hazırlaşdığını dedim. Bu təbliğat deyildi, Ermənistanın müharibədən əvvəlki aylar ərzində davranışının real təhlilinin nəticəsi idi. Əfsuslar olsun ki, mən haqlı çıxdım. Ona görə də, əgər Ermənistana qarşı vaxtında sanksiyalar tətbiq edilsəydi, əgər Minsk qrupunun həmsədrləri, dünyanın üç aparıcı ölkəsi potensialının 5 faizini Ermənistanı öz işğalçı qüvvələrini geri çəkməyə inandırmağa və ya məcbur etməyə istifadə etsəydi, müharibə baş verməzdi. Odur ki, müharibəyə görə məsuliyyət yalnız Ermənistanın üzərində deyil, həmçinin onu beynəlxalq hüquqa riayət etməyə məcbur edə bilməyən və ya bunu etmək istəməyənlərin üzərinə düşür. Nəticədə Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirdi. Biz ədaləti, beynəlxalq hüququn normalarını bərpa etdik. Biz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrini özümüz yerinə yetirdik. Biz BMT-nin Nizamnaməsini rəhbər tutaraq hərəkət etdik. 51-ci maddə hər bir ölkənin özünümüdafiə hüququnu tanıyır. Beləliklə, biz bütün beynəlxalq alətlərdən istifadə edərək, öz ərazi bütövlüyümüzü bərpa etdik".

Daha sonra Azərbaycan Prezidenti UNESCO ilə əməkdaşlığımıza diqqət çəkdi. 30 ilə yaxın müddətdə UNESCO-nun erməni vandalizminin işğal edilmiş Azərbaycan ərazilərindəki tarixi, dini, mədəniyyət abidələrini məhv etməsi ilə bağlı konkret addım atacağını gözlədik. Hətta bir neçə il bundan öncə hələ işğal dövründə, Azərbaycan UNESCO-nu həmin ərazilərə səfər etməyə və orada nələrin törədildiyini görməyə dəvət etmişdi. Çünki əvvəllər ATƏT-in Minsk qrupu işğal olunmuş ərazilərə iki faktaraşdırıcı missiya göndərmişdi. Azərbaycan haqlı olaraq UNESCO-dan tarixi abidələrimizə erməni təcavüzkarları tərəfindən dəymiş ziyanı öz gözləri ilə görməyi xahiş etsə də, proqram və nizamnaməsində humanitar missiya daşıması göstərilən beynəlxalq təşkilat məsələni qulaqardına, yaxud görməməzliyə vurdu. Guya ki, bu, siyasi məsələ imiş. Bu, absurd bir yanaşmadır.

Dövlətimizin başçısı da məhz məsələyə bu cür laqeyd yanaşmanın yanlış olduğunu diqqətə çatdırdı: "...Lakin müharibə bitdikdən sonra UNESCO tərəfindən onların gəlmək istədiyinə dair siqnallar aldıq. Əlbəttə, biz öz təəccübümüzü bildirdik. Çünki, demək olar, 30 il idi ki, biz onları çağıranda gəlmirdilər... BMT-nin digər təsisatları ilə daimi təmasdayıq. Bizə ekspert biliyi və məsləhətlər nöqteyi-nəzərdən geniş beynəlxalq iştirak və yardım lazım olacaq. Çünki indi bizim bərpa etdiyimiz ərazi on minlərlə kilometrdən çoxdur və əlbəttə ki, biz BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə təmasdayıq. Mümkün olan ən qısa müddətdə bütün keçmiş məcburi köçkünləri orada yenidən məskunlaşdırmağı planlaşdırırıq, amma əsas problem mina və hər yerin tamamilə dağıdılıb, viran qoyulmasıdır. Buna görə də Birləşmiş Millətlər Təşkilatı və qurumları ilə əsas məqsədimiz bir-birimizə etimad göstərərək və tərəfdaş olaraq azad edilmiş torpaqlarımızın bərpa edilməsinə nail olmaqdır".

Dünya hələ də ikili standartlardan xilas olmayıb. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisini qəbul edərkən Azərbaycan Prezidenti bir daha bu vacib məsələni xatırlatdı.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# *Adil ƏLİYEV:* "Bizi qarşıda milli birlik sayəsində fəth olunacaq yeni strateji zirvələr gözləyir"



"Çox haqlı və yerində bir deyim var: tarixi qaliblər yazır. 44 günlük müharibədə çoxəsrlik dövlətçilik tarixinin ən parlaq və bənzərsiz qələbəsini qazanan Azərbaycan haqlı, güclü və qalib dövlət kimi möhtəşəm Zəfər salnaməsi yaradıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, dövlətimizin qüdrəti, xalqımızın həmrəyliyi, mübarizə əzmi və ordumuzun gücü sayəsində torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpa olunması şərəf və qürur tariximizdir. Bu qələbə, eyni zamanda, tarixi ədalətsizliklərin aradan qaldırılması, yeni reallıqların yaradılması və milli tərəqqinin gələcək konturlarının müəyyənləşdirilməsi baxımından da olduqca əlamətdardır. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində çıxışı zamanı bu məsələlərlə əlaqədar çox mühüm nüanslara toxundu, tarixi faktlara nəzər saldı, bu günə və gələcəyə dair çox əhəmiyyətli fikirlər səsləndirdi, bir sıra mesajlar verdi".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin "Tarixi qaliblər yazır" sərlöhvəli məqaləsində yer alıb.

Məqalədə həmçinin deyilir: "Bu kontekstdə, ilk növbədə, qeyd etmək lazımdır ki, Azərbaycanda hərbçilər, qazilər və şəhid ailələri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Dövlət başçısı sözügedən çıxışı zamanı diqqətə çatdırdı ki, İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək. Eyni zamanda Vətən müharibəsi qəhrəmanı adını alan bütün şəxslərin, ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələrinin mənzillərlə təmin edilməsi də diqqət mərkəzindədir. Sadalananlara paralel olaraq müharibə dövründə öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilməsi Azərbaycan dövlətinin sosialyönümlü siyasətinin humanist mahiyyətini əks etdirir.

## Tarixi Zəfər: ikili standartlar siyasətinin iflası və ədalətin təntənəsi

Xüsusi vurğulamaq gərəkdir ki, Müzəffər Ali Baş Komandanımız çıxışı zamanı Azərbaycanın qələbəsinin necə möhtəşəm və əzəmətli, əhəmiyyətli olduğunu bir daha diqqətə çatdıraraq "Bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq", - deyə vurğuladı. Həqiqətən də, bu gün dünyanın nüfuzlu ali hərbi məktəblərində və strateji tədqiqat mərkəzlərində öyrənilən İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq. Çünki bu müharibə Azərbaycan xalqının Qurtuluş savaşı olması ilə yanaşı, ədalətin və iradənin təntənəsi, həmçinin dövlətimizin regionda təhlükəsizliyin təmin olunması üçün haqlı mübarizəsi və strateji qətiyyəti idi. Azərbaycan həm dövlətimizin gücünün, həm də xalqımızın həmrəyliyinin rəmzi olan "Dəmir yumruq" vasitəsilə təkcə işğalçı Ermənistanı məğlubiyyətə uğratmadı, həm də döyüş meydanında erməni faşizminin başını əzdi - belini qırdı, separatizmi məhv etdi, beynəlxalq birliyin bəzi üzvlərinin ikili standartlara əsaslanan siyasətini iflasa uğratdı. 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad edən Azərbaycan həm də mühüm bir beynəlxalq presedent yaratdı. Bu, bütün təzyiqlərə və ədalətsizliklərə baxmayaraq, bir dövlətin olduqca mürəkkəb beynəlxalq şəraitdə öz hərbi-siyasi qüdrəti vasitəsilə ərazi bütövlüyünü bərpa etməsi, BMT-nin uzun illər ərzində kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etməklə hüququn təntənəsinə və ədalətin öz yerini tapmasına müvəffəq olmasıdır.

## Postmüharibə dövrünün reallıqları və nəticələr: Azərbaycan yeni strateji nailiyyətlərə doğru...

Prezident İlham Əliyev bəhs olunan çıxışında postmüharibə dövrünün reallıqlarına da nəzər yetirdi. Bir daha bəlli oldu ki, müharibəsonrası dönəminin gerçəklikləri tamamilə Azərbaycanın tarixi qələbəsinin nəticələrini əks etdirir. Belə ki, siyasi-diplomatik müstəvidə diktə edən tərəf məhz yeni reallıqlar yaratmış qalib və haqlı Azərbaycan dövlətidir. Yeddi rayon ilə yanaşı, Şuşa şəhərini, Hadrutu, Xocavənd rayonunun 60 faizini, həmçinin Suqovuşan qəsəbəsini azad edən Azərbaycan istər Qarabağ bölgəsində, istərsə də Ermənistanla sərhəddə hakim strateji nöqtələrə malikdir. Məhz işğaldan azad edilmiş ərazilərdə bərpası ilə əlaqədar nəhəng vəzifənin uğurla yerinə yetirilməsi, həmçinin regionda kommunikasiya xətlərinin bərpası, o cümlədən Zəngəzur dəhlizinin açılması isə Azərbaycanın iqtisadi, siyasi gücünün, strateji imkanlarının artmasını, çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafını və beynəlxalq münasibətlər sistemində yüksəlişini təmin edəcək. Bütün bunlar isə hazırkı reallıqların praqmatik siyasət həyata keçirən, strateji avantajlara sahib olan Azərbaycan üçün mühüm perspektivlər vəd etdiyini göstərir.

## Milli iradənin gücü və tarixi ədalətsizliyin aradan qaldırılması

Yeri gəlmişkən, postmüharibə dövrünün ən mühüm reallıqlarından biri Prezident İlham Əliyevin müvafiq fərmanı əsasında iqtisadi rayonların yeni bölgüsünün aparılmasıdır. Əlbəttə, bu, təkcə iqtisadi-sosial məzmun daşımır, həm də tarixi, siyasi-strateji baxımdan çox mühüm əhəmiyyətə malikdir.

İlk növbədə, qeyd etmək lazımdır ki, dövlət başçısının 7 iyul 2021-ci il tarixli həmin fərmanı ilə xalqımıza qarşı böyük bir tarixi ədalətsizlik aradan qaldırıldı. Məlumdur ki, 1921-ci ildə Rusiya Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosunun plenumunun iclas-protokolunda "Dağlıq Qarabağ" ifadəsi yer almışdı. Eyni zamanda bunun əsasında süni bölgü aparılmış, 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Dövlət başçısının bəhs olunan fərmanında "Qarabağ iqtisadi rayonu" ifadəsinin yer alması ilə "Dağlıq" sözünün və bütövlükdə, süni bölgünün üzərindən birdəfəlik xətt çəkildi. Yeni bölgü əsasında Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması da mühüm tarixi və siyasi-strateji önəm daşıyır. Bununla yanaşı, Xankəndinin, Xocalının Qarabağ iqtisadi rayonuna daxil edilməsi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qəti ifadəsidir. Yeni mərhələdə regional inkişaf kontekstində Qarabağın və Şərqi Zəngəzurun bərpası isə həm mühüm sosial-iqtisadi dividendlər vəd edir, həm də xalqımızın və dövlətimizin öz tarixi irsinə sahib çıxdığını, gələcək nəsillərə milli miras buraxdığını göstərir.

## Rəsmi İrəvanın cinayətkar siması Ermənistanın terrorçu mahiyyətini əks etdirir

Dövlət başçısının bəhs olunan çıxışı zamanı toxunduğu çox mühüm məsələlərdən biri də Azərbaycanın humanist və məsuliyyətli mövqeyinin fonunda Ermənistanın terrorçu və cinayətkar mahiyyətidir. Əlbəttə, bu fakt həm tarixi, həm də indiki reallıqları əks etdirməklə beynəlxalq ictimaiyyətə yaxşı məlumdur.

Rəsmi İrəvanın, təcavüzkar erməni millətçilərinin terrorçu siması və xarakterini əks etdirən məqamlardan biri onların antihumanist davranışı ilə əlaqədardır. Sirr deyil ki, Birinci Qarabağ müharibəsindən sonra Azərbaycan xalqının təxminən 4 minə yaxın nümayəndəsi itkin düşüb. Ermənilər isə onların nəşini bizə qaytarmayıblar, müxtəlif yalanlar və bəhanələrlə dünya ictimaiyyətini aldatmağa çalışmaqla qeyri-insani mövqe sərgiləyiblər. İşğalçını döyüş meydanında layiqincə cəzalandıran Azərbaycan isə həm də humanizm prinsipinə - özünün insanpərvərlik ənənələrinə sadiqlik nümayiş etdirir. Təkcə işğaldan azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılıb.

Digər bir fakta nəzər yetirək. Azərbaycan dünyada tolerantlıq nümunəsi, multikulturalizm diyarı kimi tanınır, sivilizasiyalararası dialoqun inkişafına müstəsna töhfələr verir. Multikulturalizm həm cəmiyyətdə həyat tərzi, həm də dövlət siyasətidir. Azərbaycan nümunəsi milli və dini dözümlülüyü, mehriban və təhlükəsiz birgəyaşayışı əks etdirir. Ermənistan isə bütün bu dəyərlərə zidd yanaşma və mövqe sərgiləyir. Faktlar bu ölkənin və rəsmi İrəvanın cinayətkar obrazını göstərir. Belə ki, uzun illər ərzində işğal altında saxladıqları ərazilərdə illeqal məskunlaşdırma aparan Ermənistan, həmçinin tarixi, dini-mədəni abidələrimizə qarşı vandalizm aktları törətməklə bəşəriyyətin mədəniyyət xəzinəsini - dünya mədəni irsini hədəfə alıb. Bu, sanki sivilizasiyadan uzaq vəhşi bir tayfanın bütün insani və mədəni dəyərlərə qarşı hücumunu əks etdirir.

## Möhtəşəm qələbənin nəticələrinin möhkəmləndirilməsi yeni milli-strateji hədəflər kontekstində

Beləliklə, reallıqlar aydındır: qalib Azərbaycan postmüharibə mərhələsində tarixi, siyasi və strateji əhəmiyyətə malik olan addımlarla qələbənin nəticələrini möhkəmləndirir, həm öz milli tərəqqisi, həm də regional təhlükəsizlik və əməkdaşlıq kontekstində yeni perspektivlər yaradır. Bu isə ölkəmizin qarşısında duran yeni strateji vəzifələrə - milli hədəflərə çatmağa etibarlı zəmin - əlverişli şərait yaradır. Necə deyərlər, bizi qarşıda milli birlik sayəsində fəth olunacaq yeni strateji zirvələr gözləyir!





# İlham Əliyev Şuşanın şöhrətini qaytarır

Əvvəli 1-ci səh.

Buna görə də Heydər Əliyevin göstərişi ilə axtarış aparılaraq Vaqifin məzarı tapılmış və Ulu Öndər dağılmış, bərbad halda olan məzarı ziyarət etmişdi. Sonradan Heydər Əliyev nitqlərinin birində bu məzarın Vaqifə layiq olmadığını vurğulamışdı. Və 1980-1981-ci illərdə Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üstündə möhtəşəm abidə, türbə ucaldılmışdı.

Memar A.V.Salamzadə və E.İ.Kanukovun layihəsi əsasında 1977-ci ildə inşasına başlanan və Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə tikilmiş bu məqbərə dördkünc quruluşa malik idi və mərmərlə bəzədilmişdi.

Vaqifin möhtəşəm abidəsinin təntənəli açılışı isə 1982-ci il, yanvar ayının 14-də Ulu Öndərin iştirakı ilə keçirilmişdi...

### "...Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum..."

Düz, 39 ildən sonra, 2021-ci ilin 14 yanvarında tarixi məqbərənin qarşısında çıxış edən Prezident İlham Əliyev həmin günləri belə xatırlamışdı: "...Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı".

İlham Əliyev onu da xüsusi vurğuladı ki, xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi: "Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi".

Prezident çıxışı zamanı bildirdi ki, Ulu Öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi: "Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada atam və görkəmli mədəniyyət xadimləri. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar..."

Ümummilli Liderin görkəmli şairə göstərdiyi bu ehtiram, həm milli ədəbiyyata sevgisindən, həm də bu ərazilərin tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə, tarixiləşdirməklə bağlı idi.

Xain və məkrli düşmən, ilk növbədə, işğal etdiyi ərazilərimizdə tarixi, dini, mədəni abidələrimizi dağıdırdı. Vandal düşüncəli erməni faşistlərinin bu barbar əməllərindən Vaqifin məqbərəsi də yan keçməmişdi...

Amma müzəffər sərkərdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 44 gün ərzində mənfur düşməni Vətənimizdən qovaraq, həm də tariximizin, kimliyimizin izlərini daşıyan maddi və mədəni abidələrimizi xilas etdi...

### "Şuşada Vaqif poeziya günləri bərpa edilməlidir"

1982-ci ildə, Ümummilli Lider Heydər Əliyev Şuşaya səfəri zamanı həm də orada Vaqifin məqbərəsi ilə yanaşı, Poeziya Evinin də açılışında və orada keçirilən "Vaqif poeziya günləri"ndə iştirak etmişdi. Ulu Öndər Heydər Əliyev həmin vaxt "Vaqif poeziya günləri"nin keçirilməsi barədə göstəriş vermişdi və hər il avqust ayında "Vaqif poeziya günləri" keçirilirdi. Proqramına şeir gecələri ilə yanaşı, konsertlər də daxil olan bu bayram tədbiri şairin vətəni Qazaxda başlayıb, Şuşada yekunlaşardı. Amma 30 illik işğal müddətində xalqımız da, Şuşa da bu günlərdən uzaq düşmüşdü...

Qürurlu Qarabağ Zəfərimiz həmin ənənəvi şeir bayramımız olan "Vaqif poeziya günləri"nin də bərpasına rəvac verərək sənətsevərlərin, ümumilikdə Azərbaycan xalqının sevincinə səbəb olub.

Bu il yanvar ayının 5-də Prezident İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən demişdi ki, Şuşada Vaqif poeziya günləri bərpa edilməlidir: "Vaqif poeziya günləri ənənəvi olaraq keçirilirdi. Yadımdadır, mən də atamla birlikdə Vaqif poeziya günlərində olmuşam..."

Dövlətimizin başçısı Qarabağın baş tacı Şuşada ənənvi mədəniyyət günlərini bərpa edərək, işğaldan azad edilən torpaqlarda, bütövlükdə müstəqil Azərbaycanda təntənəli həyata qayıdışa rəvac verdi...

Qarabağda baş tutan bu mədəniyyət bayramlarının ilk carçısı isə "Xarıbülbül" Musiqi Festivalı oldu. Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa 29 ildən sonra yenə doğmalarını, qonaqlarını qarşıladı. Uzun fasilədən sonra ilk dəfə keçirilən "Xarıbülbül" Musiqi Festivalı Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsinə həsr olundu...

Daha bir tənətənəli sənət şöləsi isə "Vaqif poeziya günləri"nin yenidən Şuşada keçirilməsi olacaq. Molla Pənah Vaqifin bərpa olunan əzəzmətli mavzoleyinin qarşısında ecazkar muğamımızın sədaları, qəlbləri söz çeşməsi kimi çağlayan şairlərimizin şeirləri ilhamlanaraq dağlarda-daşlarda əks-səda verərək, dalğa-dalğa Tanrı dərgahına ucalacaq...

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

## Şeyxülislam Allahşükür PAŞAZADƏ:
# "Azərbaycan-Gürcüstan dostluğu daimi olacaq"





Avqustun 27-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə QMİ sədri Azərbaycan ilə Gürcüstan arasındakı əlaqələrin tarixindən danışıb. Gürcüstanda çox sayda azərbaycanlıların olduğunu bildirən QMİ sədri qeyd edib ki, oradakı soydaşlarımız rifah şəraitində yaşayır, dini ibadətlərini həyata keçirirlər. Dini-mənəvi müstəvidə tarixi əlaqələrin əhəmiyyətindən bəhs edən QMİ sədri Qafqazın ağsaqqal dini lideri, böyük qardaşı saydığı Patriarx II İliyanın şəxsiyyətini yüksək dəyərləndirib. "Ölkələrimiz arasında mənəvi əlaqələrin inkişafında Gürcüstan patriarxı II İliyanın rolunu xüsusi vurğulamaq lazımdır. Gürcüstan ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri var. Bu dostluğu gələcək nəsillərə çatdırmaq lazımdır. Bizim dostluğumuzu gözü götürməyən, ara vurmağa çalışan qüvvələr var. Lakin, mən əminəm ki, onların heç bir cəhdi baş tutmayacaq və qardaşlığımız daimi olacaq", - deyə QMİ sədri qeyd edib.

Şeyxülislam Allahşükür Paşazadə gürcü patriarxı II İliyanın Azərbaycan və Gürcüstan xalqları arasında mənəvi körpülərin daha da möhkəmlənməsi üçün birgə əməkdaşlıq nümunələrini xatırladaraq, patriarxın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və bu qardaş dəstəyinin İkinci Qarabağ müharibəsi dövründə bir daha ifadə olunduğunu, məktub və onlayn görüşmələrdə bir daha vurğulandığını xüsusi qeyd edib. Zamanında gürcü patriarxının münaqişənin sülh yolu ilə həlli məqsədilə Azərbaycan və erməni dini liderlərinin görüşləri üçün vasitəçilik missiyasını yüksək dəyərləndirən Şeyxülislam Allahşükür Paşazadə Qafqazda əmin-amanlıq şəraitinin hökm sürməsində patriarxla dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərinin böyük rolu olduğuna diqqəti çəkib. Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevin dost, qardaş ölkələrimiz arasında münasibətlərin inkişafını prioritet saydığını, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqlarımız arasında bütün sahələrdə olduğu kimi, dini-mənəvi, humanitar sahədə münasibətlərin yüksək səviyyəsinin təmininə böyük töhfələr verdiyini xüsusi qeyd edib.

Şeyxülislam Allahşükür Paşazadə QMİ-nin nəzdində Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Dialoq Mərkəzinin Himayədarlar Şurasının üzvü olan patriarx II İliyanın bu qlobal platformada fəal iştirakını vurğulayaraq, pandemiya səbəbindən Gürcüstanda keçirilməsi nəzərdə tutulan beynəlxalq tədbirin təxirə salındığını, lakin şərait yaranan kimi bu nüfuzlu beynəlxalq forumun keçiriləcəyini qeyd edib. Xarici ölkələrdə yaşayan soydaşlarımızın dini-mənəvi tələbatlarının ödənilməsi məqsədilə bir çox ölkələrdə nümayəndəlikləri olan Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyətinin qardaş Gürcüstanda daha yüksək səviyyədə davam və inkişaf etdirilməsi zərurəti xüsusi vurğulanıb.

Regional dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsinin xaricdəki nümayəndəlikləri arasında Gürcüstandakı təmsilçiliyinin xüsusi fəallıq göstərdiyini və Gürcüstan dövlətinin müvafiq qurumları, habelə Gürcü Patriarxlığı ilə sıx əlaqələrə malik olduğunu xatırladan Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə qəbul edilmiş qanunvericilik aktlarının bu müstəvidə əməkdaşlığımız üçün yeni perspektivlər açdığını qonağın diqqətinə çatdırıb.

Şeyxülislam Allahşükür Paşazadə erməni işğalından azad olunmuş ərazilərimizdə dağıdılmış, təhqir olunmuş mənəvi irs nümunələrimiz barədə qonağa məlumat verib, Gürcüstanın Azərbaycandakı səfirinin bu mənzərələri öz gözləri ilə gördüyünü xatırladıb. QMİ sədri görüşdə Azərbaycanda və Gürcüstanda ermənilərin xristian pravoslav dini məbədlərini özününküləşdirmək, mənşəyini saxtalaşdıraraq erməniləşdirmək cəhdlərinin birgə səylərlə qarşısının alınmasının vacibliyini vurğulayıb.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze iki ölkənin dini liderləri arasında sıx dostluq münasibətlərinin olmasını təqdirəlayiq hal kimi dəyərləndirib. Bildirib ki, bu münasibətlər dövlətlərimiz arasındakı əlaqələrin inkişafında da mühüm rol oynayır. "Müasir dövrdə dini liderlər cəmiyyət arasında daha böyük nüfuza malikdirlər. Din xadimləri cəmiyyəti öz arxalarınca apara bilirlər. Bu baxımdan, Azərbaycanın və Gürcüstanın dini liderlərinin dövlətçiliyə sadiqlikləri xüsusi əhəmiyyət daşıyır, hər iki dini lider daim dövlətin yanında olmaları ilə seçilirlər.

Gürcüstanda müxtəlif xalqlara mənsub 400 minədək müsəlman yaşayır. Onların dini bayramları dövlət səviyyəsində təbrik edilir, Gürcüstanın Baş naziri tərəfindən hər il Ramazanda iftar süfrəsi açılır. Onlar dini rifah halında yaşayırlar, bütün hüquqları Gürcüstan hökuməti tərəfindən müdafiə edilir. Dini mərkəzlər mədəni abidələr olduğu üçün qorunur", - deyə Zaza Vaşakmadze qeyd edib.

Azərbaycanın dini liderini və onun simasında Azərbaycan xalqını Vətən müharibəsində qazanılmış rəşadətli Zəfər münasibətilə ürəkdən təbrik edən qonaq Gürcüstan patriarxı II İliyanın Şeyxülislam Allahşükür Paşazadəyə ad günü münasibətilə təbrik məktubunu çatdırıb.

QMİ sədri xoş sözlərə görə təşəkkürünü bildirib və minnətdarlığını mənəvi qardaşı Patriarx II İliyaya yetirməyi rica edib.

Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və QMİ sədrinin birinci müavini müfti Salman Musayev də iştirak ediblər.

# Latın amerikalı jurnalistlər Gəncədə Ermənistanın müharibə cinayətlərini müşahidə ediblər



Latın Amerikasının nüfuzlu media nümayəndələri Ermənistanın müharibə cinayətləri ilə yaxından tanış olmaq üçün Gəncədə səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlar ötən ilin oktyabrın 11-də Gəncədə erməni terroru nəticəsində çoxlu insanın öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Xarici jurnalistlər erməni terrorunu pisləyib, dinc insanları öldürənlərin cəzasız qalmamalı olduğunu bildiriblər.

# "Artilleriya atəşinin ustaları" müsabiqəsi davam edir



"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Qazaxıstan Respublikasının Qvardiya qarnizonunda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin növbəti mərhələsi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komandamızın ikinci heyəti də fərdi mərhələdə uğurla çıxış edib. Təyin olunmuş hədəfləri sərrast atəşlə məhv edən artilleriyaçılarımız hakimlərin qərarına əsasən doqquz komanda arasında üçüncü yerə layiq görülüblər.

Birinci və ikinci yerləri isə müvafiq olaraq Rusiya və Qazaxıstandan olan artilleriyaçılar qazanıblar.





# Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəsmiləri Qax rayonunda olublar

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşaxmadzenin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində avqustun 28-də Qax rayonunda olub.





Gürcüstanlı qonaqları Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) rəsmi şəxsləri, Gürcüstanın ölkəmizdəki səfiri Zurab Pataradze və səfirliyin əməkdaşları müşayiət ediblər.

AZƏRTAC xəbər verir ki, səfər proqramına uyğun olaraq, Gürcüstan nümayəndə heyəti əvvəlcə Qax Rayon İcra Hakimiyyətində rayon rəhbərliyi ilə görüşüb. İcra hakimiyyətinin başçısı Musa Şəkiliyev qonaqlara rayonun iqtisadiyyatı, mədəniyyəti, turizm potensialı, əhalinin etnik tərkibi və mövcud tolerant mühit barədə ətraflı məlumat verib.

Diqqətə çatdırılıb ki, Qax rayonunda əhalinin ümumi sayı 57 min 491 nəfərdir. Əhalinin 83 faizi azərbaycanlılar, 14 faizini gürcülər, 2 faizini saxurlar, qalanını isə digər millətlər təşkil edir. Rayonda təlimi gürcü dilində olan 6 məktəbəqədər təhsil müəssisəsi, 7 ümumtəhsil məktəbi, gürcülərin yaşadıqları kəndlərdə 5 səhiyyə müəssisəsi fəaliyyət göstərir.

Bildirilib ki, rayonda yaşayan azsaylı xalqların adət-ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün hər cür şərait yaradılıb. Gürcülərin yaşadığı kəndlərdə 4 mədəniyyət evi, 1 klub, 4 kitabxana filialı, habelə Əlibəyli kəndində Qax Dövlət Gürcü Dram Teatrı fəaliyyət göstərir. Mədəniyyət müəssisələrində fəaliyyət göstərən kollektivlərin respublika və rayon səviyyəli tədbirlərdə iştirakı təmin edilir.

Multikulturalizmin həyat tərzinə çevrildiyi və tolerantlıq nümunəsi olan Qax rayonunun gürcü pravoslav xristian əhalisi də rayonda yaşayan digər azsaylı xalqlar kimi, daim diqqət mərkəzində saxlanılır. Rayonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyatdan keçmiş Qaxingiloy kəndindəki "Müqəddəs Georgi" və Əlibəyli kəndindəki "Müqəddəs Nino" kilsəsi gürcü pravoslav xristian dini icmaları fəaliyyət göstərir. Bu dini icmalara hər il dövlət tərəfindən müvafiq maliyyə yardımları ayrılır.

Gürcüstan nümayəndə heyəti adından bu ölkənin Azərbaycandakı səfiri Zurab Pataradze çıxış edərək, səmimi qarşılanmaya görə təşəkkürünü bildirib. Səfirliklə Qax Rayon İcra Hakimiyyəti arasında səmərəli əməkdaşlığın olduğunu vurğulayan səfir belə görüşlərin ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin inkişafına güclü təkan verdiyini deyib. Səfir Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin nümayəndə heyətinin Azərbaycana səfər proqramının olduqca zəngin olduğunu, Bakıda çox səmərəli görüşlərin keçirildiyini diqqətə çatdırıb.

Gürcüstanlı qonaqlar sonra rayonun Qaxingiloy kəndində yerləşən "Müqəddəs Georgi" kilsəsini ziyarət edib, "Məryəmoba" bayramına qatılıblar.

Diqqətə çatdırılıb ki, "Müqəddəs Georgi" kilsəsi 1855-ci ildə Rusiya imperiyasının dövlət xəzinəsi hesabına tikilib. İbadətgahda dini ayinlərin icrası üçün hər cür şərait yaradılıb. Kilsə yerli əhəmiyyətli tarixi abidə kimi dövlət tərəfindən qorunur.

Gürcüstanlı qonaqlar kilsədə şam yandırıb, yerli sakinlərlə söhbət ediblər. Kilsədə dini ayinlər icra olunub.

Qax rayonuna səfərləri çərçivəsində Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşaxmadzenin rəhbərlik etdiyi nümayəndə heyəti və onları müşayiət edən şəxslər Qaxingiloy kənd tam orta məktəbində də olub, müəllim və şagirdlərlə görüşüblər.

Məktəbin şagirdləri Azərbaycan və gürcü dillərində şeirlər söyləyib, mahnılar ifa ediblər.

Bildirilib ki, respublikanın hər yerində olduğu kimi, Qaxda da milli azlıqların övladlarının hərtərəfli təhsil almaları, onların bilikli, savadlı yetişmələri üçün bütün zəruri addımlar atılır.

Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi və bu ölkənin Azərbaycandakı səfirliyi tərəfindən məktəbə və uşaqlara hədiyyələr təqdim olunub.

Sonra gürcüstanlı qonaqlar rayonun Əlibəyli kəndində yerləşən "Müqəddəs Nino" kilsəsini ziyarət ediblər.

Qax rayonuna səfərləri çərçivəsində qonaqlar Qax şəhərinin gəzməli-görməli yerləri ilə də tanış olublar.

# Biz birlikdə güclüyük!

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb

Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti noyabrın 1-i saat 06:00-dək uzadılıb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qeyd edək ki, xüsusi karantin rejiminin müddəti sentyabrın 1-də başa çatırdı.

## Şənlik mərasimləri ilə bağlı qaydalara dəyişiklik edildi

2021-ci il 1 sentyabr tarixindən etibarən 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində də COVID-19 pasportunun təqdim olunması tələb olunacaq.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yəni 150 nəfərədək şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində iştirakla bağlı mövcud olan bütün tələblər 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində də tətbiq ediləcəkdir.

Bu qərar qəbul olunanadək 50 nəfərə qədər şəxsin iştirakı ilə təşkil olunan şənlik mərasimlərində tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə məcburi idi və həmin şənlik mərasimlərində iştirak üçün COVID-19 pasportunun təqdim olunması tələb olunmurdu.

## Tedros Adhanom dünya əhalisinin ən azı 10 faizinin sentyabrın sonuna qədər peyvənd olunacağını hesab edir

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən qoyulmuş dünya əhalisinin ən azı 10 faizinin sentyabr ayının sonuna qədər koronavirus əleyhinə peyvəndlə əhatə olunması hədəfinə nail olmaq mümkündür və bu istiqamətdə irəliləyiş əldə edilib. AZƏRTAC xəbər verir ki, bu barədə ÜST-ün Baş direktoru Tedros Adhanom Gebreyesus Cenevrədə ÜST üzv dövlətlərinin nümayəndələri üçün keçirdiyi brifinqdə bildirib.

“Biz 10 faiz hədəfimizə nail ola bilərik, lakin bir şərtlə ki, bütün üzv ölkələr həmrəylik göstərərək, birlikdə çalışsınlar”, - deyə o qeyd edib. Baş direktor, bununla bağlı, bu məqsədə doğru gedən müsbət nəticələrə diqqət yetirib. “Biz irəliləyişə nail oluruq”, - deyə Tedros Gebreyesus bildirib. “Artıq 140 ölkənin əhalisinin ən azı 10 faizi peyvənd olunub”.

ÜST rəhbəri xatırladıb ki, “qlobal məqsəd, hər bir ölkəyə sentyabr ayının sonuna qədər əhalisinin ən azı 10 faizini, ilin sonuna qədər ən azı 40 faizini və dünya əhalisinin 70 faizini gələn ilin ortasına qədər peyvənd etməyə kömək etməkdən ibarətdir”. O, “dünyanın bir çox yerində” koronavirus əleyhinə peyvənd etmənin səviyyəsinin iki faizdən az olduğu faktını “qəbuledilməz” adlandırıb. “Bax buna görə biz ən azı sentyabr ayının sonuna qədər buster dozalara qlobal moratorium elan etməyə çağırırdıq”, - deyə Tedros Gebreyesus vurğulayıb.

## Ötən gün 11 nəfər COVID-19 pasportu olmadığına görə toy şənliklərinə buraxılmayıb

Daxili İşlər Nazirliyinin (DİN), Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri avqustun 27-də Bakı şəhərində və respublikanın digər ərazilərində altı toy şənliyinin monitorinqini aparıblar.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqlər 3 şadlıq sarayında, 3 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib. Monitorinqlər zamanı toy şənliklərində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 3 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimələnib. COVID-19 pasportu olmadığına görə 11 nəfər toy şənliklərinə buraxılmayıb.

## Koronavirusun təhlükəli olduğunu bilə-bilə bəziləri qaydalara əməl etmirlər

### Bu isə həm onların özlərinin, həm də ətrafındakıların həyatlarını risk altına salmaq deməkdir

Azərbaycanda koronavirusun üçüncü dalğası hələ də səngimir. Təhlükəli inveksiyaya yoluxma və bu səbəbdən ölüm halları artıb. Son günlər dünyanın əksər ölkəsindən gələn xəbərlər ürəkaçan deyil. Pandemiya qlobal bəla olaraq qalır.

Belə bir vaxtda ətrafımızda qaydalara laqeyd yanaşan insanları gördükcə təəssüflənirik. Unudurlar ki, koronavirus görməməzlikdən gəlincə, yox olmur. Əksinə, öz meydanını daha da genişləndirir. Koronavirus xəstələrinin icazəsiz evdən çıxması barədə yayılan xəbərlər bu qəbildəndir. Hər gün Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının keçirdikləri müvafiq tədbirlər nəticəsində COVID-19 testi pozitiv çıxmış, ev şəraitində müalicə təyin edilmiş xəstələrin karantin qaydalarını kobud şəkildə pozaraq yaşayış yerini tərk etdiyi aşkarlanır. Nazirliyin əməkdaşları tərəfindən lazımi işlər görülür. Onlarla izahedici söhbətlər aparılır və həmin şəxslər yaşadıqları evə qaytarılırlar. Hətta bəziləri barəsində Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılır. DİN Mətbuat xidmətindən verilən məlumatda da aktiv koronavirus xəstəliyinin daşıyıcıları olan və evdə özünütəcrid qaydaları çərçivəsində müalicəyə cəlb olunan vətəndaşların nəzərinə çatdırılır ki, onların mənzillərini tərk etməsi yolverilməzdir.

Artıq hər kəs koronavirusun təhlükəli olduğunu bilir. Çıxış yolunun isə hələlik yalnız sadə qaydalara əməl etməyin - maska taxmağın, məsafə gözləməyin, gigiyenik qaydalara riayət etməyin və peyvəndlənmənin olduğunu mütəxəssislər dönə-dönə deyirlər. Bəs koronaviruslu insanlar peyvənd vurdura bilərlərmi? Bu suala biologiya elmlər doktoru, Corc Meyson Universitetinin Sistem Biologiyası Məktəbinin professoru Ança Baranova aydınlıq gətirib. O, “Sputnik” radiosuna açıqlamasında deyib: “Koronavirus infeksiyası müəyyən edilən şəxslər peyvənd vurdurmalı deyillər”.

Amma nəzərə almaq lazımdır ki, koronavirus bəzi hallarda simptomsuz keçir. A.Baranova qeyd edib ki, koronavirusdan sağalan şəxs peyvənd vurdurarsa, bu o deməkdir ki, “qızıl zirehə” sahib olur. Çox güman ki, bu zaman uzunmüddətli immun reaksiya əldə edilə bilər. Mütəxəssis bildirib: “Amma koronavirusa yeni yoluxmusunuzsa və ilk dozanı qəbul etmisinizsə, xəstəliyi peyvənd vurdurmayan insanlar kimi keçirəcəksiniz”.

Professor xatırladıb ki, belə vəziyyətlə qarşılaşmamaq üçün orqanizmdə virusun olub-olmamasını müəyyən edən PCR testi vermək lazımdır.

“Journal of Hospital Medicine”nin yazdığına görə, 2020-ci ilin sonunda koronavirusa yoluxmuş şəxslərin demək olar ki, 85 faizi bir neçə ay sonra da virusun simptomlarını hiss edir. Məlumata görə, Miçiqan Universitetinin tədqiqatçıları ötən ilin payız aylarının sonunda və bu ilin qışında koronavirusa yoluxduğuna görə xəstəxanaya yerləşdirilən 253 nəfərin məlumatlarını təhlil edib. Araşdırmada iştirak edən pasiyentlərin orta yaşı 60 olub. Koronavirusa qarşı müalicə almış həmin xəstələrin təqribən 85 faizi yarım il keçsə də, tam sağalmayıblar. Hətta bu şəxslərdə tam müalicə kursundan sonra da koronavirus simptomları aşkar olunub. Məlumatda həmin şəxslərin hələ də özlərini sağlam hiss etmədikləri bildirilib. Həmçinin koronavirusa yoluxmuş bu şəxslərin 55 faizi yarım il ərzində özündə əvvəl olmayan digər xəstəliklər - ürək və ağciyər xəstəlikləri aşkarlanıb. Araşdırmada iştirak edənlərin təqribən dörddəbiri onlarda güclü öskürək yarandığını söyləyib. 20 faizi sürətli və yaxud nizamsız ürək döyüntülərinin olmasından şikayətlənib. Təqribən 16 faizi isə mütəmadi ev şəraitində oksigen aparatından istifadə edir. Həmin şəxslərdə hərəkətlə bağlı problem də yaranıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Rusiya üzrə nümayəndəsi Melita Vuynoviç qripə qarşı peyvənd olunmağın COVID-19 əleyhinə peyvənd olunmaq qədər vacibliyini açıqlayıb. Bildirib ki, bu ən azından bir virusla bağlı problemi həll etməyə kömək edəcək: “Biz ötən il də qrip əleyhinə vaksin olunmağı tövsiyə edirdik. Baxmayaraq ki, təcrid və maska rejimi səbəbindən həmin vaxt qripə yoluxma az idi. Praktiki olaraq özümüzü, əhalini qorumalıyıq, çünki ikiqat epidemiya - qrip və COVID-19 - səhiyyə sistemi üçün çox çətin olacaq. Ən azı, bir virusla mübarizə aparmağımıza kömək edəcək. Bizə məlum bir peyvəndlə insanları qripdən qorumaq vacibdir”.

ÜST-ün Rusiyadakı nümayəndəsi bildirib ki, yeni koronavirus ştamları uşaqlar üçün təhlükəli deyil. Melita Vuynoviç deyib: “Hazırda biz deyə bilmərik ki, vəziyyət həyəcanvericidir. Əvvəlki kimi məhdudiyyətlər olmadığından isə uşaqların yoluxma riski böyükdür. Hər hansı dəyişiklik olarsa, bütün ölkələri məlumatlandıracağıq. Biz uşaqların yoluxmasını görürük, ancaq virusun xüsusi olaraq uşaqlar arasında yayılması halı qeydə alınmayıb. Virus əsasən immunizasiya olunmayanlar arasında daha çox yayılır”.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş mama-ginekoloqu Sevinc Məmmədova isə diqqətə çatdırıb ki, koronavirus insanlara təmas və ya damcı yolu ilə ötürülür. O vurğulayıb ki, xüsusilə əlləri ən az 20 saniyə sabun və su ilə yumaq son dərəcə vacibdir: “Evdən çıxarkən maska taxmaq və izdihamdan uzaq olmaq lazımdır. Sosial məsafə qaydaları çərçivəsində digər insanlara 2 metrdən çox yaxınlaşmaq, əl sıxmaq və qucaqlaşmaq olmaz. Yuxu rejiminə, sağlam və balanslı qidalanmağa diqqət yetirilməlidir”.

Nazirlik rəsmisi koronavirus epidemiyası zamanı aparılan məhdud araşdırmalar nəticəsində ana südündən körpəyə koronavirusun ötürülməsinin aşkar edilmədiyini diqqətə çatdırıb: “Bu səbəbdən xanımların körpələrini ana südü ilə bəsləməkdən çəkinməsinə ehtiyac yoxdur. Körpələri əmizdirməzdən əvvəl əllər sabun və su ilə yuyulmalı, maska və əlcək taxılmalıdır. Ana südü verərkən tənəffüs gigiyenasına riayət edilməlidir. Ancaq sadalananları icra etmək mümkün deyilsə, ana südü sağılaraq steril şüşə vasitəsilə sağlam insan tərəfindən körpəyə verilə bilər”.

S.Məmmədova koronavirusu ağır keçirmiş hamilə qadınlarda körpələrin vaxtından əvvəl doğulması faktlarını söyləyib. Vurğulayıb ki, ancaq erkən doğuşa nəyin səbəb olduğunu dəqiq bilmək çətindir: “Hamiləlik dövründə böyüyən körpə ananın ağciyərlərinin, ürəyinin, qan dövranının fəaliyyətini artırır. Ağır COVID-19-un olması bu vəziyyəti daha da çətinləşdirə və tənəffüs problemlərinə səbəb ola bilər. Bu vəziyyətdə olan bütün qadınlar xəstəxanada yaxından izlənilməlidir”.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***







## Əlavə gücləndirilmiş dezinfeksiya işləri çərçivəsində Bakıda 550 küçə dezinfeksiya edildi









Avqust ayının 28-də səhər saatlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən həyata keçirilən əlavə gücləndirilmiş dezinfeksiya işləri aparılan zaman paytaxtda ümumilikdə 550 küçə dezinfeksiya olunub.



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görülən bu işlər Bakı şəhərində sakinlərimizin həyatının təhlükəsizliyinə yönəldilən tədbirlərin bir hissəsi olaraq mütəmadi davam etdiriləcək.

Vətəndaşlarımızdan bir daha xahiş edirik ki, pandemiyadan xilas olmaq üçün, ilk növbədə, vaksinasiya olunsunlar, özlərinin, yaxınlarının, ətraflarındakı insanların qorunması, xəstəliyin daha çox yayılmasına imkan verilməməsi üçün tibbi-profilaktiki qaydalara ciddi riayət etsinlər.



## Ali Məclis payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirib

Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müşavirədə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış ediblər.

Ali Məclisin Sədri elektroenergetika və qaz təsərrüfatı sahələrində enerji itkilərinə yol verilməməsinin, təhsil müəssisələrində, eləcə də digər dövlət qurumlarında və ictimai yaşayış binalarında istilik sistemlərinin hava şəraitinə uyğun tənzimlənməsinin və qənaətlə istifadə olunmasının vacibliyini qeyd edib, bu sahələrdəki nöqsanları diqqətə çatdıraraq aidiyyəti üzrə tapşırıqlar verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək deyib: “Naxçıvan Muxtar Respublikasında ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması, sosial-iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi, yaşayış məntəqələrində kompleks quruculuq işlərinin aparılması əhalinin rifahını yüksəltmiş və rahat yaşayışına səbəb olmuşdur. Bütün yaşayış məntəqələrinin dayanıqlı elektrik enerjisi və təbii qaz təminatı, təhsil, səhiyyə və digər dövlət qurumlarının müasir binalarda yerləşməsi, fasiləsiz rabitə və nəqliyyat xidmətlərinin göstərilməsi, gündəlik tələbatın ödənilməsi payız-qış mövsümündə müşahidə olunan problemləri aradan qaldırmışdır. Bütün bunlarla yanaşı, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq tədbirləri də görülür, müşavirə keçirilərək aid qurumlara tapşırıqlar verilir. 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq da bu gün qarşıda duran əsas vəzifələrdəndir”.

Ali Məclisin Sədri deyib: “Payız-qış mövsümündə diqqətdə saxlanılacaq birinci məsələ elektrik enerjisi və təbii qaz təchizatıdır. Çünki muxtar respublikada məskunlaşmanın artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə və təbii qaza olan tələbatı ilbəil artırır. Hər il bu sahələr üzrə tədbirlər həyata keçirilir, yeni elektrik stansiyaları istifadəyə verilir. 2021-ci ilin ötən dövründə Şərur rayonunda 5 meqavatlıq Günəş Elektrik Stansiyası və Culfa rayonunda 1,1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilmişdir. Dövlət Energetika Xidməti mövcud imkanlardan səmərəli istifadə etməli, elektrik stansiyalarının gücü və tələbat düzgün qiymətləndirilməlidir”.

Qeyd olunub ki, qaz təsərrüfatının yenilənməsi sahəsində həyata keçirilən tədbirlər bu il də davam etdirilmiş, Naxçıvan şəhərində yeni Qaz Kompressor Stansiyası qurulmuşdur. Bununla da yeni stansiya Naxçıvan-Sədərək qaz kəmərində təzyiqi artırmaqla yanaşı, həm də qəza hallarında abonentlərin 8-10 gün müddətində təbii qazla təminatına imkan verəcəkdir. Qaz İstismar Xidməti qış mövsümündə əhalinin təbii qaza olan tələbatını düzgün müəyyənləşdirməli, qaz təchizatı sistemi texniki baxışdan keçirilməlidir. Həmçinin texniki itki normalarının minimal həddə saxlanılmasına və qanunsuz istifadə hallarına yol verilməməli, nəzarət gücləndirilməli, işçilər müvafiq geyim və avadanlıqlarla təmin olunmalıdırlar. Payız-qış mövsümündə əsas diqqət yetirilən sahələrdən biri də kommunal-təsərrüfat sistemidir. Ona görə də yerli icra hakimiyyətləri cari il noyabr ayının 1-dək bütün yaşayış məntəqələrində qış mövsümünə hazırlıq işlərini başa çatdırmalı, qazanxanalar saz vəziyyətə gətirilməli, onların təbii qazla yanaşı, mazut və dizel yanacağı ilə də işləyə bilməsi təmin edilməlidir. İctimai yaşayış binalarında mövsümi hazırlıq işləri görülməli, yolların qar və buzdan təmizlənməsi üçün kommunal xidmət texnikaları saz vəziyyətə gətirilməlidir.

Müşavirədə tapşırılıb ki, İqtisadiyyat Nazirliyi daxili bazarın tələbatını düzgün müəyyənləşdirməli, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünü və müvafiq texnoloji rejimə uyğun saxlanılmasını təmin etməli, ehtiyatlar qorunmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar evinin qış mövsümünə hazırlığı ilə bağlı tədbirlər görməli, hərbi hissələr üçün isti geyimlərin toxunması işi davam etdirilməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi payız-qış mövsümündə bütün yaşayış məntəqələrində fasiləsiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət yetirməli, qəzalı vəziyyətdəki xətt və dirəklər dəyişilməli, müvafiq mal-material ehtiyatı yaradılmalıdır. Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin istiliklə fasiləsiz təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır.

## Ballıqaya qətliamından 29 il ötür - faciə şahidləri danışır

Erməni qəsbkarlarının Azərbaycan xalqına qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində minlərlə soydaşımız qətlə yetirilib, yüz minlərlə insan doğma yurdundan didərgin salınıb. Ermənistan silahlı qüvvələrinin XX əsrin 90-cı illərində azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlərdən biri də Ballıqaya qətliamıdır.



29 il əvvəl erməni quldurları tərəfindən törədilən bu faciə Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində azərbaycanlı əhalisini kompakt şəkildə məhv etmək məqsədilə həyata keçirilən silsilə kütləvi qırğınlardan biridir.

1992-ci il avqustun 27-dən 28-nə keçən gecə erməni quldurları Laçın rayonundan məcburi köçkün düşən və Goranboy rayonunun Ballıqaya kəndində müvəqqəti məskunlaşmış 24 azərbaycanlı mülki şəxsi amansızlıqla qətlə yetirib, 9 nəfəri yaralayıblar. Qətlə yetirilənlərin arasında 6 azyaşlı uşaq, o cümlədən 6 aylıq körpə də olub, 3 azyaşlı uşaq hər iki valideynini itirib. Öldürülmüş dinc insanların bəzilərinin meyitləri yandırılıb. Ballıqayada 93 yaşında qoca qadına da aman verilməyib. Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və qocalar olub. 9 nəfəri isə ağır yaralanıb. Qətlə yetirilən və ağır bədən xəsarəti alan şəxslərin hamısı heyvandarlıqla məşğul olan mülki şəxslər, çobanlar və onların ailə üzvləri idi.

Bu qətliam zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub. Bütün beynəlxalq hüquq normalarına və bəşəri dəyərlərə zidd olaraq mülki insanlar - azyaşlı uşaqlar, qadınlar və qocalar qətlə yetirilib. Ballıqaya qətliamı ilə bağlı materiallar, maddi sübutlar və faktlar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Memorial Soyqırımı Muzeyində saxlanılır.

Ballıqaya qətliamı zamanı erməni quldurları 33 yaşlı Hürzaman Hümbətovanı 6 azyaşlı övladı ilə birlikdə qətlə yetirərək yandırıblar. Həmin vaxt Bərdə rayonunda olan ailə başçısı Vəzir Hümbətov AZƏRTAC-a söhbətində 29 il əvvəl törədilmiş qətliamın dəhşətlərindən danışıb.

“Kəndimiz işğal olunandan sonra bir müddət Göygöl rayonunda, sonra isə Goranboy rayonunun Ballıqaya ərazisində məskunlaşdıq. Hadisə baş verən gün mən Bərdə rayonunda, ailəmiz isə Ballıqayada idi. Mən Ballıqayaya gedəndə gördüm ki, Ağcakənddə post qurulub. Heç kimi buraxmırlar. Soruşdum nə olub? Dedilər ermənilər dinc sakinləri qətlə yetiriblər. Əraziyə çatanda gördüm ki, çoxlu insan yığılıb. Ermənilər alaçıqlardakı insanların hamısını qoca, qadın, uşaq demədən güllələyib qətlə yetirmişdilər. Bizim qaldığımız daxala da od vurulmuş, 6 uşağım və yoldaşım yanmışdı. Sonra məlum oldu ki, ermənilər əvvəlcə ailəmi güllələyib, sonra od vurub yandırıblar. Daxal yanıb tökülmüşdü cəsədlərin üstünə. Uşaqlarımın və yoldaşımın yanmış cəsədlərini külün içindən çıxarıb Ağdamın Güllücə kəndində dəfn etdik. Aradan bir müddət keçəndən sonra Güllücə kəndi də işğal olundu. Uşaqlarımın və yoldaşımın qəbirləri işğal olunan ərazidə qaldı. 29 il idi ki, onların qəbirlərini ziyarət edə bilmirdim. Şükür olsun Allaha, 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz düşmən üzərində qələbə qazandı, işğal altında olan torpaqlarımız azad edildi. Mən də illər sonra Güllücə kəndinə gedərək, ailə üzvlərimin qəbirlərini tapıb ziyarət etdim. Laçın rayonundan gətirdiyim torpağı və suyu qəbirlərin üstünə töküb təsəlli aldım”.

Ballıqayada qətlə yetirilmiş şəxslərdən bəziləri Bərdə rayonunun Qaradəmirçi, Alpout, Tumaslı və Nazırlı kəndlərində dəfn edilib. Faciə zamanı ailə üzvlərini və yaxın qohumlarını itirən Yunis Mehdiyev də hər il Nazırlı kəndindəki qəbiristanlığa gələrək onları yad edir. “1992-ci ildə Laçın rayonu işğal edilən zaman doğma yurdumuzdan köçkün düşdük. Əvvəlcə Kəlbəcərdən keçib Toğanada məskunlaşdıq. Sonra isə Goranboyun Ballıqaya ərazisinə gəldik. Ballıqayada qaldığımız üçüncü gecə səhərə yaxın ermənilər gəlib camaatı qanına qəltan elədilər. Qətliam zamanı anam, bacım, qardaşım, onun yoldaşı, əmim, əmimin yoldaşı, iki oğlu və qızı, bibim, bibimin iki qızı və qayınanası, əmim nəvələri vəhşicəsinə qətlə yetirildi. Çox ağır faciə idi - bir nəsildən 24 nəfər öldürüldü”, - deyə o qeyd edib.

Ballıqayada törədilən qətliamda Məmmədyar Alıməmmədovun da yaxın qohumları qətlə yetirilib. M.Alıməmmədov bildirib ki, faciə zamanı qətlə yetirilənlərin çoxu yaxın qohumları olub: “Ballıqaya qətliamı zamanı anam, bacım, babam, dayım, onun yoldaşı, uşaqları, anamın əmisi uşaqları qətlə yetirilib. 29 ildir ki, insanlığa sığmayan bu qətliamın təsiri ilə yaşayırıq. Bu gün artıq təsəllimiz var ki, ordumuz düşmən üzərində Qələbə qazanaraq bütün şəhidlərimizin, o cümlədən Ballıqaya qətliamı qurbanlarının qisasını alıb. Torpaqlarımız işğaldan azad edilib. Bunun üçün Prezidentimizə minnətdarlığımızı bildirir, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirik”.

Ermənilər tərəfindən törədilən faciələr, o cümlədən Ballıqaya qətliamı xalqımızın yaddaşından heç vaxt silinməyəcək, bu cinayətləri törədənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dövlət onların, onlar dövlətin dayağıdır



### Prezident İlham ƏLİYEV: "Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir"

Əvvəli 1-ci səh.

Postmüharibə dövründə 26 min nəfərə 36 min xidmət göstərilib.

Müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər sırasında onların avtomobillə təmin olunması da önəmli yer tutur. Xatırladaq ki, indiyədək 7200 müharibə əlili avtomobillə təmin edilib. Bu il 160-dan çox avtomobilin verilməsi nəzərdə tutulub.

Beləliklə, dünyada koronavirus pandemiyasının hökm sürməsinə və iqtisadi çətinliklərin olmasına baxmayaraq, ölkəmizdə bu istiqamətdə işlər davam edir. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncam bunun daha bir təsdiqidir.

Bu sahədə Azərbaycanın dünya miqyasında nümunəvi ölkə sayıla biləcəyini vurğulayan dövlət başçısı sözügedən tədbirdə demişdir: "Bu günə qədər 10 minə yaxın vətəndaş mənzillərlə, fərdi evlərlə təmin edilib. Biz hər il dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayırırıq ki, bu məsələlər öz həllini tapsın və növbəti müddət ərzində bu proqram tam icra olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müvafiq göstərişlər verilib, gələn ilin büdcəsi formalaşdıqda, əlbəttə ki, bu məsələ öz həllini tapacaq. Onu da bildirməliyəm ki, dünən imzaladığım sərəncam əsasında İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş və qəhrəman adına layiq görülmüş şəxslər də mənzillərlə təmin ediləcək, müvafiq sərəncam imzalanıbdır. Vətən Müharibəsi Qəhrəmanı adını alan bütün şəxslər mənzillərlə təmin ediləcək. Ölümündən sonra bu ada layiq görülmüş şəhidlərin ailələri də bu mənzillərə sahib olacaqlar".

Müharibə dövründə əmlakını itirmiş insanlar da unudulmayıb. Onlar üçün də minlərlə yeni ev tikilməkdədir. Evlərin xeyli hissəsi artıq inşa edilib.

Bu və digər evlər və yaşayış kompleksləri hər cür rahat şəraitlə, zəruri sosial infrastukturla təmin olunub. Məsələn, sözügedən kompleksin ərazisində 280 yerlik uşaq bağçası da inşa edilib. Burada belə müasir bağçanın istifadəyə verilməsi sakinlərin övladlarının tərbiyəsində, asudə vaxtlarının səmərəli təşkil edilməsində böyük rol oynayır.

Kompleksin ərazisində eləcə də 1512 şagirdlik tam orta məktəb binası tikilib. Təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların elmin sirlərinə yiyələnmələri üçün bütün imkanlar yaradılıb. Məktəbdə informatika, texnologiya, çağırışaqədər hərbi hazırlıq, kimya, fizika, biologiya otaqları, idman zalları, kitabxana şagirdlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə görüşdə şəhid ailələrinin üzvləri, müharibə əlilləri və Vətən müharibəsi qəhrəmanları bütün bunlardan məmnun olduqlarını bildirdilər. Göstərilən qayğıkeşliyə və diqqətə görə dərin minnətdarlıqlarını ifadə etdilər. Mehriban xanım Əliyevanın özünün doğum günündə məhz onlarla birlikdə olmasını yüksək dəyərləndirdilər.

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Ramiz Cəfərovun həyat yoldaşı Sitarə Cəfərova dedi: "Mənim yoldaşım otuz il bu Vətənə xidmət edib. Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Sizin sərəncamınızla ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi və digər medallarla təltif olundu. Sizə təşəkkür edirəm. Siz şəhid ailələrinə daim dəstək olmusunuz və həmişə bizim yanımızda olmusunuz. Bu gün də bizə sevinc bəxş etmisiniz. Bizi mənzillərlə təmin edirsiniz. Allah Sizə cansağlığı versin. Allah Sizi Azərbaycan xalqının üstündə həmişə var eləsin. Hörmətli Mehriban xanım, bu gün Sizin doğum gününüzdür. Fürsətdən istifadə edərək Sizi təbrik edirəm. Allah Sizə cansağlığı versin, uzun ömür və bol-bol nailiyyətlər arzulayıram. Çox sağ olun".

Vətən müharibəsi şəhidi Fərid Şamilovun atası Mirzə Şamilov isə fikrini belə ifadə etdi: "Bu gün oğlumun və bütün şəhidlərimizin ruhu şaddır. Çünki Sizin rəhbərliyinizlə tarixi Qələbəyə imza atdıq. Xalqımız öz arzusuna çatdı. Otuz il düşmən işğalında olan torpaqlarımız azad edildi. Gələcək nəsillərimiz də bu tarixi Zəfəri qürurla yad edəcəklər, xatırlayacaqlar. Vətən müharibəsindən çox az, doqquz ay keçməsinə baxmayaraq, Sizin tapşırığınızla bizə, bütün şəhid ailələrinə yüksək diqqət və qayğı ilə yanaşırlar. Bütün sosial dəstəklə əhatə olunmuşuq. Gənc qazilərimizin evlə, mənzillə, maşınla təmin olunması şəhid atası kimi məni həqiqi mənada sevindirir və qürurlandırır. Buna görə Sizə minnətdaram. Tanrı Sizi, Mehriban xanımı qorusun. Mehriban xanım, şəhid ailələrinə xüsusi, həssas, diqqətli yanaşmağınızın göstəricisidir ki, ad günündə də bizimləsiniz. Sizi təbrik edirik".

Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov da minnətdarlıq duygularını ifadə etdi: "Cənab Prezident, biz bu gün sevinirik, fərəhlənirik. Ona görə ki, Sizin bizə göstərdiyiniz böyük qayğının bir daha şahidi oluruq. Şəhid ailələri, qazilər mənzillə təmin olundular. Həmçinin qazilərimizə minik avtomobilləri hədiyyə etdiniz. Sizin sərəncamınızla hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlar bir daha yüksək qiymətləndirilərək Vətən Müharibəsi qəhrəmanları və onların ailələri mənzillərlə təmin olunurlar. Mən ehtiyatda olmağıma baxmayaraq, daim Sizin tapşırığınızı yerinə yetirməyə hazıram. Azərbaycan xalqı Sizinlə daim yeni zəfərlərə imza atacaq".

Prezident və Birinci vitse-prezident digər qazilər və şəhid ailəsi üzvləri ilə də səmimi söhbət etdilər.

Şəhidlərin xatirəsinə bir dəqiqəlik sükutla başlanan tədbirdəki çıxışını dövlət başçısı bu sözləri ilə tamamladı: "Mən bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deməliyəm ki, siz - onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Balaxanı Sənaye Parkında yeni rezident qeydiyyata alınıb

### Sumqayıt Kimya Sənaye Parkının rezidenti isə istehsalı artırır

İqtisadiyyat Nazirliyinin yaydığı məlumata görə, Balaxanı Sənaye Parkında sayca 23-cü rezident - "Zəfər işığı" MC qeydiyyata alınıb.




"Zəfər işığı" MMC il ərzində 5,4 milyon ədəd led lampaların istehsalını nəzərdə tutur. Layihənin ümumi investisiya dəyəri 1 mln. manata yaxındır. 1000 m2 istehsalat sahəsinə malik olan müəssisədə 20 daimi iş yeri yaradılacaqdır.

Qeyd edək ki, Balaxanı Sənaye Parkının 23 rezidentindən 16-sı artıq fəaliyyət göstərir və 800-ə yaxın daimi iş yeri yaradılıb. Sənaye Parkının fəaliyyətində əsas məqsəd kiçik və orta sahibkarlara əlverişli biznes mühitinin yaradılması ilə yanaşı, məhsulların təkrar istifadəsi, emalı və resirkulasiyasına təkan verməkdir.

Nazirliyin bundan əvvəl açıqladığı başqa bir məlumatda isə bildirilirdi ki, "SumPlast" MMC 2017-ci ilin dekabrında Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb və 2020-ci ildə istehsal fəaliyyətinə başlayıb.

Müəssisədə Almaniya texnologiyası əsasında FFS filmlərin (polietilen kisələr) istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 3,3 milyon ABŞ dolları olan müəssisədə 30 nəfər daimi işlə təmin edilib.

İndiyədək şirkət tərəfindən 5 milyon manata yaxın satış həyata keçirilib. İstehsal olunan məhsullar daxili bazara çıxarılır və daha çox "Azərkimya" İstehsalat Birliyinin və "SOCAR Polymer" MMC-nin istehsal məhsullarının qablaşdırılmasında istifadə edilir.

Bundan başqa, "SumPlast" MMC tərəfindən məhsullarının xarici bazarlara ixracı istiqamətində danışıqlar aparılır və nümunə üçün məhsullar artıq bir sıra Avropa ölkələrinə təqdim edilib.

## "Azeri Light" neftinin qiyməti 71 dolları ötüb




Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,99 dollar artaraq 71,43 dollar təşkil edib.

Qeyd edək ki, ötən ilin ikinci rübündən vüsət alan pandemiyanın təsiri nəticəsində neft qiymətləri minimum göstəricilərə enmişdi. Lakin qlobal miqyasda vaksinasiya prosesi və effektiv karantin tədbirləri nəticəsində neft tələbatı bərpa olunub, qiymətlər artmağa başlayıb.

## "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı 443-ə çatıb

### Təqdim edilən vakansiya sayı isə 2000-dən çoxdur

"Məşğulluq marafonu"na qoşularaq şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstək göstərən işəgötürənlərin sayı artıq 443-ə çatıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan marafonda iştirak edən həmin işəgötürənlərin 226-sı dövlət, 217-si özəl müəssisələrdir.

Onlar tərəfindən marafona 2003 vakansiya təqdim edilib. Bu vakansiyalar üzrə işlə təmin olunanların sayı da 543-ə çatıb ki, onlardan 439-u qazi, 104-ü şəhid ailəsi üzvləridir.




Hazırda vakansiyalar üzrə işlərə göndərişlərin verilməsi prosesi davam edir.

## Pambıqçılıqla bağlı tarla seminarı keçirilib

Tərtər Aqrar Təlim Mərkəzinin nümayiş təcrübə sahəsində "Azərbaycanda pambıqçılığın inkişafında Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutunun elmi nəticələrinin və yeniliklərinin rolu" mövzusunda elmi-praktik seminarı keçirilib.

Pambığın yetişməsi ərəfəsində keçirilən tarla günündə bölgədə fəaliyyət göstərən bir qrup aparıcı pambıqçı fermer və aqrar sahə mütəxəssisləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tarla şəraitində keçirilən seminarda institutun tədqiqatçı alimlərinin seleksiya nailiyyətlərinin nəticələri nümayiş etdirilib, yeni yaradılmış sortlarla fermerlər əyani şəkildə tanış olub, xarici sortlarla müqayisəli şəkildə əkilmiş nümayiş tarlasına baxış keçirilib. Seminarda Azərbaycanda pambıqçılığın inkişafında yerli sortların rolu haqqında geniş təqdimat edilib, düzgün aqrotexniki tədbirlər, eləcə də vegetasiya müddəti ərzində becərmə işlərində uğursuzluqlara apara biləcək səhvlər və bitki mühafizə tədbirləri haqqında fermerlər məlumatlandırılıb.

## Neftçala aydınlığa qovuşur

Təbiətin işini heç kəs tamam-kamal bilmir. Təxminən 15-20 il əvvəl Kür çayının aşıb-daşaraq məcrasına sığmadığı, sahilboyu şəhər və kəndləri, evləri, bağ-bağatları, əkin sahələrini sel sularının necə çənginə aldığı, təbii fəlakətə qarşı dövlət səviyyəsində təxirəsalınmaz tədbirlər görüldüyü bu gün də adamların yaxşı yadındadır.

### Rayona su çəkilişi davam edir



Artıq 3-4 ildir ki, bu vəziyyət tərsinə dövran edir. Kürün mənbəyində yağıntının az olması və qlobal istiləşmə nəticəsində xüsusilə yay aylarında çayda suyun səviyyəsi minimum həddə enmişdir. Nəticədə Neftçalada dənizin suyu çaya axaraq qonşu Salyan rayonunun sərhədinə qədər gəlib çatmışdır. Yaranan vəziyyət Neftçala rayonu əhalisi üçün problem yaratmışdır. Ona görə də əlaqədar təşkilatların texnikası, canlı qüvvəsi problemin həllinə cəlb olunmuşdur. Bakı, Sumqayıt şəhərlərindən, habelə qonşu rayonlardan köməyə gələn texnikanın köməyi ilə yaranan gərginlik qismən aradan qaldırılmışdır.

Hazırda Prezident İlham Əliyevin sərəncamı ilə Neftçalaya yeni su xətti çəkilir. "Azərsu" ASC-nin sifarişi ilə "Azəraqrartikinti" ASC-nin icra etdiyi layihənin vaxtında tamamlanması üçün bütün qüvvələr səfərbər olunub. Layihənin rəhbəri Tahir Məmmədov deyir ki, keçən il noyabr ayının 1-də işlərin ən mühüm hissəsi başa çatdırılıb. Salyan rayonunun Babazanan yüksəkliyində 7 min 500 kubmetrlik su anbarı inşa edilərək mənbəyi Şirvan-Muğan su kəməri olan xətt vasitəsilə su ilə doldurulub. Buradan diametri 560 millimetrlik qalındivarlı polietilen borularla uzunluğu 40 kilometr olan magistral xətt çəkilib. Paralel olaraq boruları keçirmək üçün Bankə qəsəbəsində Kür çayının Şirvan tayı ilə Muğan tayını birləşdirən 262 metrlik körpü tikilib. Yeni xətt Neftçala şəhərində keçən əsrin 70-ci illərində çəkilmiş su kəmərinə qoşulub.

Lakin köhnə xəttin dəmir boruları korroziyaya uğradığından təzyiqə davam gətirmir və bu səbəbdən də şəhər əhalisinin yalnız 30-40 faizi qapılarına qədər gələn sudan istifadə edə bilir. Sakinlərin əksəriyyəti isə şəhərin müxtəlif yerlərində qoyulan çənlərdən su götürürlər. Çox güman ki, yaxın gələcəkdə Neftçala şəhərinin su təminatının daha da yaxşılaşdırılması üçün şəhərdaxili xətlər də dəyişdiriləcək. Hazırda isə şəhərətrafı yaşayış məntəqələrinə, habelə digər qəsəbə və kəndlərə su çəkilişi davam edir.

Layihənin icrasında 150 nəfərdən çox işçi çalışır. Tikintiyə müxtəlif adda 60 maşın və mexanizm cəlb olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Özəl sektorun güman yeri

### Sahibkarlığın İnkişafı Fondunun fəaliyyətə başlamasından 19 il ötür

Sahibkarlığa Kömək Milli Fondu 1992-ci ildə yaradılmasına baxmayaraq, aktiv fəaliyyətə 2002-ci ildən başlayıb.

AZƏRTAC xəbər verir ki, dövlət büdcəsinin vəsaiti hesabına verilən güzəştli kreditlərin istifadəsində yaranmış çətinliklərin aradan qaldırılması, Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin Azərbaycan iqtisadiyyatının inkişafının prioritetləri və mərhələlər üzrə həlli tələb olunan vəzifələrlə uzlaşdırılması, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və bu fəaliyyətin genişləndirilməsinin təmin edilməsi məqsədilə Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 27 avqust tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydalar"nın təsdiq edilməsi ilə Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması bu maliyyə qurumunun inkişafında dönüş nöqtəsi olub. Bu qaydaların tətbiqi sahibkarlara güzəştli kreditlərin verilməsində olduqca əhəmiyyətli rol oynayıb.

Prezident İlham Əliyevin böyük uzaqgörənliklə apardığı müasir iqtisadi şəraitin tələblərinə uyğun olaraq düşünülmüş və ardıcıl islahatlar iqtisadiyyatın şaxələndirilməsinə, iqtisadi dayanıqlığının təmin olunmasına, regionların tarazlı inkişafına və ölkənin strateji inkişaf hədəflərinə nail olunmasına əhəmiyyətli töhfəsini verib. Eyni zamanda dövlət-sahibkar münasibətlərinin və qeyri-neft sektorunun inkişafı, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqətdə saxlanılıb.

Ötən dövr ərzində fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı dövlət başçısının müvafiq fərmanları (2004, 2005, 2006, 2009 və 2011-ci illərdə) imzalanıb və nəticədə güzəştli kredit vəsaitlərinin daha məqsədli layihələr üzrə yerləşdirilməsi, eləcə də sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərindən səmərəli istifadə edilməsinə əlverişli şərait yaradılıb. Sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək, İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb və "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilib. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib. Eyni zamanda yeni qaydalarda orta həcmli kreditlərin hədləri dəyişdirilərək 50 min 1 manatdan 1 milyon manatadək müəyyən edilib. Yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışının, eləcə də qeyri-neft istehsalının və ixracının genişlənməsinə, istehsal xərclərinin azalmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaradacaq.

Pandemiyadan zərərçəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşlarının sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində Sahibkarlığın İnkişafı Fondu sahibkarlara yeni verilən bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasını, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılmasını davam etdirir. Belə ki, 2021-ci il mayın 31-dək dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi çərçivəsində 1026 müraciət üzrə 258,3 milyon manat kreditə 149,7 milyon manat məbləğində dövlət zəmanəti verilib. Mövcud kredit portfelinin subsidiyalaşdırılması mexanizmi üzrə isə kredit qalığı 819,2 milyon manat olan 4497 müraciətə 57 milyon manat faiz subsidiyasının verilməsi barədə müsbət qərar qəbul edilib və artıq 49,3 milyon manat subsidiya ödənişi həyata keçirilib. Qeyd edək ki, sahibkarların dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi üzrə müraciətləri Elektron Kredit Platforması üzərindən qəbul olunur. Sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının daha da asanlaşdırılması məqsədilə fond tərəfindən xidmətlərin tam elektronlaşdırılması istiqamətində tədbirlər görülür.




GÜNAHSIZLAR

**8 noyabr 2020-ci il müstəqil Azərbaycanın tarixinə əfsanəvi Şuşa şəhərinin 28 il sonra erməni işğalından azad olunduğu gün kimi yazıldı. Kiçik şəhər olmasına baxmayaraq, ən qədim zamanlardan bu günə kimi Azərbaycan tarixinə, mədəniyyətinə bir-birindən dəyərli ziyalılar, şəxsiyyətlər bəxş edən Şuşa işğaldan azad edildikdən sonra Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Mədəniyyət Paytaxtı elan edildi.**



# Şuşalı mühacir

Qarabağın, eləcə də Şuşanın azadlığı ictimaiyyətdə doğurduğu qürur və sevinclə yanaşı, yeni təkliflərin səslənməsinə də səbəb oldu. Vaxtilə orada olmuş qədim mədəniyyət abidələrinin, yerli memarlıq üslubunda tikilmiş mülklərin, muzeylərin, kitabxanaların, uşaq bağçası və təhsil müəssisələrinin, dövlət əhəmiyyətli binaların, məscid və inanc yerlərinin bərpası, habelə Şuşada doğulmuş tarixi şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi həm xalqımızın, həm də dövlətimizin prioritet məsələlərindəndir.

Nəinki Qarabağda erməni silahlı birləşmələrinə qarşı mübarizə aparanlar sırasında, bütövlükdə Azərbaycanın o dövr istiqlal davası tarixində mühüm yer tutan şuşalılardan biri də Hüseyn Baykaradır. 117 il bundan öncə, 1904-cü ildə Şuşada ziyalı ailəsində dünyaya göz açan bu şəxsiyyətin əsl adı Qara, soyadı Hüseynov olmuşdur.

Orta təhsilini Şuşada alan Qara Hüseynov sonralar Bakı Dövlət Universitetinin Tarix fakültəsində oxumuşdur. Gənclik illərindən ermənilərin Qarabağ torpaqlarında törətdiyi vəhşiliklərə son qoyulması, xalqının azadlığı, ölkəsinin müstəqilliyi uğrunda gedən ictimai-siyasi hadisələrin fəal iştirakçısı olmuşdur. 19 yaşlı Qara Hüseynov 1923-cü ilin sonlarında bolşeviklər tərəfindən həbs edilərək istiqlal şairi Əhməd Cavadla Bakının köhnə Staro-Politseyski məhəlləsindəki həbsxanada (Kömürçü bazarının yaxınlığında, karamelnı fabriki kimi tanınan ünvanda) bir neçə ay bir kamerada dustaq həyatı yaşamışdır.

Qara Hüseynov bir gün şəhərdə yaxın dostu Əhməd Cavadla, qeyri-leqal Milli Azadlıq Komitəsinin rəhbəri doktor Dadaş Həsənzadə və bu sıradan olan liderlərdən Rəhim bəy Vəkilli ilə rastlaşır. Uzun-uzadı söhbətdən sonra Qara Hüseynov erməni-bolşevik təqiblərindən bezdiyini, Dövlət Siyasi İdarəsi əməkdaşlarının diqqətini özlərindən uzaqlaşdırmaq üçün qeyri-leqal komitənin üzvlərinin, özü də bu dəstəyə daxil olmaqla bir hissəsinin müvəqqəti olaraq Azərbaycandan çıxıb getmələrini təklif edir. Qara Hüseynov öz xatirələrində qeyd edir ki, bu zaman Azərbaycan azadlıq mübarizəsinin hər üç lideri mənim bu təklifimə qarşı çıxdılar və dedilər: "Mən gedim xarici ölkəyə, sən get, o getsin, çox yaxşı, bəs bu bədbəxt və talesiz günləri millətlə kim bölüşsün!

Rəhim bəy Vəkilli və Əhməd Cavad mənim sözlərimə çox hirsləndilər və bir daha belə danışmamağı söylədilər. O vaxtdan düz yarım əsr keçmişdir. Azadlıq uğrunda mübarizə aparan bu üç "azadlıq aşiqi" sözlərinə sadiq qalmış, Azərbaycan xalqının bədbəxt günlərini xalqla birgə yaşamışdılar. Doktor Dadaş Həsənzadə güllələnmiş, Rəhim bəy Vəkilli özünü öldürmüş, Əhməd Cavad isə Sibirə sürgün olunmuş (əslində şair NKVD zirzəmisində ağır işgəncələrlə 1937-ci il oktyabrın 13-dən 14-nə keçən gecə vəhşicəsinə qətlə yetirilmişdir) və ondan bir daha heç bir xəbər gəlməmişdir".

1927-ci ildə dostlarından biri Qaraya izlənildiyini, universitet tələbələrinin Novruz bayramı ilə əlaqədar keçirəcəkləri tədbirdə bolşevik casusları tərəfindən tutulacağını ehmalca xəbər verir. Bu zaman Qazax gimnaziyasında böyük şairimiz Səməd Vurğuna, Osman Sarıvəlliyə, şəmkirli Qlaçalı Kamala, Hüseyn bəy Hacıyevə dərs demiş qardaşı, tanınmış pedaqoq Surxay müəllimin Sibirə sürgün edildiyi səhnələr gözləri önündə canlanır.

Tələbələr arasında qapalı və simvolik keçirilən Novruz tədbirlərində gözə dəyməyən Qara NKVD-çilərin əlinə keçməmək üçün Azərbaycanla vidalaşmalı olur. Baharın xoş günlərində əyninə çoban paltarı geyinib üz tutur cənuba - çatır Araz çayının sahilinə, İrana keçir, sonra da Türkiyəyə gedir. Hüseyn Baykara ad və soyadı ilə taleyini bu ölkəyə bağlayır. İlk növbədə ali təhsil almağı qarşısına məqsəd qoyur. Xeyirxah insanların qayğısı ilə əhatə olunan 23 yaşlı Hüseyn Baykara İstanbul Universitetinin Hüquq fakültəsinə daxil olur. Ərəb, fars və rus dillərini, habelə qədim tarixi yaxşı bildiyindən, Şərq-Qərb ədəbiyyatına yetərincə bələd olduğundan qısa müddətdə nümunəvi tələbə kimi tanınır. Şair Əli Yusif bəyin vasitəsilə universitetin nəzdində yaradılmış Azərbaycanlı Tələbələr Birliyinə yazılır. Birliyin keçirdiyi ziyafət, görüş və konfransların fəal iştirakçısı olur. Dövrün məşhur tələbələrindən Süreyya Talıbxanlı, Dilşad Talıbxan Elburus, Əhməd Cəfəroğlu, Səlim Rəfiq, Mirzəbala Məhəmmədzadə, Azərbaycanlı Tələbə Birliyinin rəhbəri İslam bəy, sabiq ədliyyə naziri Xəlil bəy Xasməmmədli və başqaları ilə yaxından tanış olur.

Hüseyn Baykara universiteti müvəffəqiyyətlə bitirdikdən sonra Diyarbəkr vilayəti Osmaniyyə qəzası prokurorluğunda, sonra İstanbulda hakim və prokuror vəzifələrində çalışır. Bu zaman dövri mətbuatda saysız-hesabsız publisistik məqalələri ilə çıxış edir. "Azəri-türk", "Odlu Yurd" kimi jurnallarda Azərbaycan xalqının mədəniyyəti, ədəbiyyatı və onun dəyərli ziyalıları ilə əlaqədar yazdığı elmi-publisistik məqalələri, xüsusilə onun "Azərbaycanda erməni basqını və Naxçıvan məsələsi", "Azərbaycan istiqlalının 50 illiyi dolayısı ilə", "Azərbaycan istiqlal mücadiləsinin iqtisadi təməli" yazıları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Çoxsaylı oxucu marağını nəzərə alan Hüseyn Baykara sonralar bu məqalələrin bəzisini daha da genişləndirərək kitab halında dərc etdirmişdir. "Azərbaycan mədəniyyəti tarixi", "Azərbaycanda yeniləşmə hərəkatı", "Azərbaycan istiqlal mücadiləsi tarixi", "İran inqilabı və azadlıq hərəkatı" əsərləri indi də oxucular tərəfindən sevilə-sevilə oxunan məxəzlərdəndir. Bu əsərlərin ana xəttini millətimizin igid oğlanlarının Azərbaycanın milli müstəqilliyi və ərazi bütövlüyünün qorunması, habelə erməni vəhşiliklərinə, işğalçı bolşevik qüvvələrinə qarşı mücadiləsi təşkil edir.

Hüseyn Baykaraya görə Azərbaycan xalqının qəlbində millətçilik ruhunu oyadan, bunu millətin qayəsinə çevirən M.F.Axundzadə, "Əkinçi"də H.Zərdabi, "Kəşkül" və "Ziya" qəzetlərində isə Ünsizadə qardaşları olmuşdur. Milli şüurun oyanışı və inkişafı ilə əlaqədar 1890-cı illərdə çar Rusiyasının Azərbaycan türklərinin türk dilində qəzet nəşrinə qadağa qoymasına baxmayaraq, artıq azəri-türk cəmiyyəti bir millət kimi meydana çıxma şüuruna malik olduğunu önə çəkir. Bununla da XX əsrin əvvəllərində etnik birliyə və coğrafi sərhədlərə malik Azarbaycan ölkəsində siyasi hakimiyyət və azadlıq olmasa da, əhalisinin, xüsusən də ziyalıların müstəqilliyə, azadlığa qovuşmaq istəyinin gündən-günə gücləndiyini diqqətə çatdırır. Şuşalı mühacir Hüseyn Baykara müşahidələrindən belə qənaətə gəlir ki, ümumiyyətlə, XX əsrin əvvəllərində milli ideologiya baxımından mübahisələr "avropalaşmaq, türkləşmək və islamlaşmaq" ətrafında gedib və bu mübahisələrin mərkəzində Azərbaycan türklərinin milli azadlıq hərəkatı dayanıb.

1967-1968-ci illərə kimi Hüseyn Baykaranın harada olmasından doğmaları xəbər tutmayıb. Türkiyədə yetərincə tanınan bu böyük şəxsiyyəti yenidən Azərbaycana tanıdan, doğmalarına qovuşduran dünya şöhrətli mayestro Niyazi olmuşdur. 1991-ci ildə ölkəmiz öz tarixi müstəqilliyinə qovuşduqdan sonra azərbaycanlı oxucular Hüseyn Baykara yaradıcılığı ilə yaxından tanış olmaq imkanı əldə etmişlər. Müstəqillik illərində bir neçə məqaləsi dilimizə uyğunlaşdırılaraq dövri mətbuatda dərc edilib. Araşdırıcılar müəllifin "Azərbaycan mədəniyyəti tarixi" və "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitablarını Azərbaycanın XX əsr azadlıq mübarizəsinin əlifbası hesab edirlər.

Hüseyn Baykara ömrünün sonuna kimi tarixi-publisistik məqalələri, dəyərli kitabları, ictimai-siyasi tədbirlərdə çıxışları ilə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və xalqının azadlığı uğrunda mübarizə aparmışdır. Mühacir, hüquqşünas, habelə milli mətbuat tarixində publisistik yazar kimi tanınan Hüseyn Baykara doğma Qarabağı, əziz Şuşanı, bir sözlə, Azərbaycanı bu günkü kimi müstəqil və qüdrətli görmək həsrəti ilə 1984-cü ildə İstanbulda dünyasını dəyişmişdir.

Cənnət Qarabağın, əziz Şuşanın erməni separatçılarından azad edilməsi mühacir Hüseyn Baykara və onun böyük qardaşı, gimnaziya müəllimi, tanınmış pedaqoq, repressiya qurbanı Surxay Hüseynov da daxil olmaqla, orada doğulmuş ziyalılarımızın ruhunun azadlığa qovuşmasıdır. Ümid edirik ki, yaxın gələcəkdə Azərbaycanın istiqlal mübarizəsi tarixində önəmli izləri olan vətənpərvər şəxsiyyətlər sırasında Hüseyn Baykaranın və Surxay Hüseynovun da xatirəsi doğulub, boya-başa çatdıqları doğma Şuşa torpağında əbədiləşdiriləcəkdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

BURULĞAN

# Sovet hökumətinin düşmən elan etdiyi əsilzadələr



**Sovet hökuməti repressiya siyasətini həyata keçirməklə çox insanın həyatına son qoydu. Xalqının, Vətəninin azadlığını arzulayanların böyük əksəriyyəti bu siyasi burulğandan sağ çıxmadı.**

Azərbaycan da bolşevik işğalına məruz qaldığı gündən vətənpərvər övladlarının başının üstünü qara buludlar aldı. Sovet hökumətinin hədəfində ilk növbədə onun gerçək niyyətini anlayanlar, soydaşlarına bunu izah etmək, milli şüuru oyatmaq iqtidarında olanlar vardı. Ona görə repressiya qurbanlarının arasında ziyalılar çox oldu. Xalqa təsir etmək, onu oyatmaq, əsl həqiqətləri söyləmək və inandırmaq gücünə malik olanlar hansı peşənin sahibi olurlarsa-olsunlar, istər-istəməz sovet hökumətinin düşmənlərinə çevrilirdilər.

Azərbaycanın qədim şəhərlərindən biri olan Şuşada da ötən əsrin 20-ci illərindən başlayaraq nüfuzlu, sayılıb-seçilən, istedadlı, tanınmış insanlar repressiya tufanında məhv edildi. Ümumilikdə min nəfərə yaxın şuşalı repressiyaya məruz qaldı. İlk qurbanlar arasında Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəallıq göstərmiş insanlar var idi. Onlardan biri Məşədi Baba Quliyev olmuşdu. O, 1866-cı ildə Şuşada dünyaya gəlmişdi. Şuşa qəzasının ən varlı adamlarından biri hesab edilirdi. Malıbəyli nahiyəsində, Quşçular obasında böyük torpaq sahələri var idi. Səxavəti, xeyirxahlığı ilə sayılıb-seçilən Məşədi Baba Quliyev Azərbaycan Xalq Cümhuriyyəti dövründə Müsavat ordusunun Xankəndidə yerləşən polkunu himayə edən, onun ərzaq və müxtəlif kənd təsərrüfatı məhsulları ilə təmin edilməsinə çalışan bəylərdən biri olub. Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra Məşədi Babanın bütün varidatı müsadirə edilib. İkimərtəbəli mülkü əlindən alınaraq məktəb binası kimi istifadə olunub. Dünyanın işlərindən yaxşı baş çıxaran Məşədi Baba kolxoza üzv yazılıb, təsərrüfatçılıqla məşğul olub. Kolxoz quruluşunun əleyhinə təbliğat aparmaq, qolçomaqlara yardım göstərmək, kolxozu dağıtmaq üçün evində yığıncaqlar təşkil etmək bəhanəsi ilə 1938-ci ildə həbs edilib. İnqilab düşməni kimi qətlə yetirilib.

Repressiya qurbanı Cəbiş bəy Həmid bəy oğlu Sədrəddinov da şuşalı idi. O, 1888-ci ildə Şuşada dünyaya gəlib. Varlı tacir və bəy ailəsində böyüyüb. İgidliyi, cəsurluğu, qorxmazlığı ilə ad çıxarıb. Qarabağın məşhur qoçularından sayılıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cəbiş bəy Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun köməyi ilə silahlı dəstə yaradaraq ermənilərə qarşı vuruşub. Məğlubiyyət ona yad olub. Cəsurluğu ilə silahdaşlarına güc, cəsarət verdiyi üçün ermənilər Cəbiş bəy Sədrəddinovdan qorxublar. Erməni daşnakları bilirdilər ki, Cəbiş bəy və onun dəstəsi heç zaman döyüşdən geri çəkilməz, açdıqları sərrast atəşdən isə yayınmaq mümkün deyil.

Azərbaycan sovet ordusunun işğalına məruz qaldıqdan sonra Cəbiş bəy Sədrəddinov İrana getməli olub. Vətəndən uzaqda çox qala bilməyib. Gizli yolla Şuşaya dönüb. Tanınmamaq üçün faytonçuluq edib. Ancaq Sovet hakimiyyətinə də məlum olduğu kimi, Cəbiş bəy kimi insanlar işğalçılara heç zaman tabe olmaq, onun qanunlarına boyun əymək istəməyib. Vətəninin azadlığı eşqini qəlbindən ata bilməyən Cəbiş bəy Sədrəddinov 1938-ci ilin yanvarında həbs edilib. Ona yaşamaq üçün fürsət verməyərək güllələyiblər.

Ağa bəy Həşim bəy oğlu Misirxanov 1885-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Rusiyada 1917-ci il fevral inqilabı baş verənədək o, iri mülkədar olub. Muradbəyli kəndində böyük torpaq sahələri var idi. Ağa bəy Misirxanov çar hökuməti və Azərbaycan Xalq Cümhuriyyəti dövrlərində dövlət qulluğunda çalışıb. Həmçinin Karyagin qəzasında pristav, Bakıda Balaxanı-Sabunçu Polismeysterliyində 6-cı polis sahə pristavının köməkçisi və pristav vəzifələrində xidmət edib.

Hələ polisdə xidmətədək Ağa bəy Misirxanov Milli Ordumuzun tərkibində Qarabağda ermənilərin separatçı çıxışlarının yatırılmasında fəal iştirak edənlərdən biri olub. 1920-ci ilin mart-aprelində isə Əskəran döyüşlərində dəstə komandiri kimi xüsusilə fərqlənib. O, 1938-ci il martın 15-də "trotskiçi" adı ilə həbs edilib. Əmlakı müsadirə olunub. Ağa bəy Misirxanov güllələnmə cəzasına məhkum edilib. Həmin il martın 26-da hökm yerinə yetirilib.

Məşhur Cavanşir nəslindən olan Rəşid ağa Cavanşir 1899-cu ildə Cavanşir qəzasının Qaraqoyunlu kəndində Azad ağanın ailəsində dünyaya göz açıb. Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi, Behbud xan Cavanşirin qardaşı idi.

Rəşid ağa Cavanşirin Qaraqoyunluda, Üçtəpədə, Üçoğlanda, Qarakilsə mahalının Darabas və Şıxlar kəndlərində, Arazbarlı, Dördçinar, Xələfşə, Azığ və digər yaşayış məskənlərində ucsuz-bucaqsız torpaq və otlaq sahələri olub. Sürüsünün, naxırının, ilxısının sayı-hesabı bilinməyib. O, 1920-ci ildə Tərtər üsyanının iştirakçısı və təşkilatçılarından olub. Rəşid ağa Cavanşir öz dəstəsi ilə birlikdə Qızıl Ordu hissələrinə qarşı döyüşüb. Üsyan yatırıldıqdan sonra Rəşid ağaya məxsus bütün mal-qara, torpaq, əmlak müsadirə edilib.

Rəşid ağanın dörd qardaşı olub. Sovet hökuməti qurulduqdan sonra qardaşları Surxay bəy, Cümşüd bəy Türkiyədə mühacirətdə yaşayıblar. Əkbər ağa Bakıya qaçıb. Rəşid ağa isə bir müddət Qarabağda yaşayıb, sonra Bakıya gəlib. Şəhərdə bir kontorda işə düzəlib. Behbud xanın qətlindən sonra Cəmşid ağa və Surxay ağanın təkidinə baxmayaraq, Rəşid ağa İstanbula getməyib. 1937-ci ilin dekabrında həbs edilərək güllələnib.

...Repressiya siyasətinin güdazına getmiş şuşalılar arasında bütün təbəqələrdən insanlar olub. Bu yazıda onlardan bir neçəsini xatırladıq. Haqqında söz açdıqlarımız Şuşa qəzasından olan varlı, bəy nəslinin nümayəndələridir.

Sovet hakimiyyətinin nəzərində bütün əsilzadələr, maddi cəhətdən imkanlılar düşmən idi. Onların var-dövlətləri, mal-mülkləri müsadirə olunurdu. Ancaq bu da qurtuluşları olmurdu. Sovet hökuməti onları həbs edir, sürgünə yollayır, ya da güllələyirdi. Hökumətin düşmən münasibəti bəslədiyi varlı şəxslərin tərcümeyi-halına nəzər salanda görürük ki, onların əksəriyyəti yalnız özlərini, ailələrini, mal-mülklərini düşünməyib, milli düşüncəyə, milli qürur hissinə malik, qeyrətli olublar. Əksəriyyəti soydaşlarının erməni terrorundan qurtulması üçün illərlə mübarizə aparıb. Sovet hakimiyyətində yüksək vəzifələr alaraq səlahiyyət sahibi olan erməni millətçiləri onlara həm də bu səbəbdən kin bəsləyirdilər. Və əllərinə fürsət düşmüşkən, sovet hökumətinin təmsilçisi olaraq həm də öz məkrli niyyətlərini həyata keçirirdilər...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

MƏXFİ "ÖLÜM DƏRƏSİ"

# Serpantinka düşərgəsi...

**Məkanı, fəaliyyəti uzun illər məxfi saxlanılan düşərgə... Bu, Baş Düşərgələr İdarəsinin (QULAQ) tabeliyində olan, Maqadan vilayətində yerləşən Serpantinka düşərgəsidir. Onu "Ölüm dərəsi" də adlandırırdılar. Düşərgənin məxfiliyi elə bir həddəydi ki, illər sonra da onunla bağlı yetərincə araşdırmalar aparmaq mümkün olmayıb. Serpantinka düşərgəsinin fəaliyyəti barədə istər "NKVD"nin Maqadan vilayət idarəsinin, istərsə də SSRİ Daxili İşlər Nazirliyinin arxivlərindən olduqca məhdud və səthi məlumatlar tapılıb. Yalnız "Ölüm dərəsi"ndən sağ çıxa bilən üç nəfərin söylədikləri əsas məlumat hesab edilir.**



### *"Güllələnmə düşərgəsi"*

Serpantinka düşərgəsinin eyni zamanda "güllələnmə düşərgəsi" adlandırılmasının dəhşətli səbəbləri olub. 1930-cu illərin ortalarında Maqadanda, Yaqodnoye qəsəbəsindən təxminən 20 kilometr uzaqlıqda, dərəlik ərazidə salınan bu düşərgə məhbuslar üçün son dayanacaq idi. Çünki bura əsasən digər düşərgələrdə qul kimi işlədilməkdən artıq gücü tükənən, iş məhsuldarlığı qalmayan məhbuslar gətirilib. Onları düşərgədə güllələnmə gözləyirdi.

Sovet hakimiyyətinin repressiya dövründə "NKVD" üçlüklərinə məhkəmə və istintaq olmadan ittiham qaldırdıqları şəxsə qarşı ölüm hökmü çıxarmaq səlahiyyəti verilib. "Ölüm dərəsi"ndə saxlanılanlar əsasən "NKVD" üçlüklərinin qərarı ilə ölüm hökmünə məhkum edilənlər olub.

Məhbuslardan ibarət işçi qüvvəsi çadırlardan və üç taxta barakdan ibarət olan düşərgədə saxlanılıb. Onlardan qul kimi istifadə edilib. Ətraf ərazilərdə ən ağır işlər ölümdən başqa yolları qalmayan bu məhbuslara gördürülüb.

### *Serpantinka düşərgəsi barədə əldə olunan arxiv sənədləri*

1990-cı ildən sonra Serpantinka düşərgəsi haqqında ilk açıqlamaların verilməsinə başlanılıb. Məhdud arxiv sənədlərindən düşərgədə hər gün 100-ə yaxın məhbusun güllələndiyi məlum olub. Başqa bir arxiv sənədindən düşərgədəki iş bölgüsünün qrafiki bəlli olub. Məlum olub ki, qış fəsli istisna edilməklə düşərgədə işə yararlı olanlar hər gün, günorta yarım saat fasilə verilmək şərtilə 12-14 saat ən ağır işlərdə çalışdırılıblar. Qış günlərində isə iş saatı 8-10 saat olub.

Araşdırmalar nəticəsində təxmin edilib ki, "Ölüm dərəsi"ndən yalnız üç nəfər qurtula bilib. Düşərgənin fəaliyyət göstərdiyi illərdə oradan başqa sağ çıxanların olub-olmaması barədə isə dəqiq məlumat əldə etmək mümkünsüzdür.

### *"Dünya bu düşərgədən xəbərsiz idi"...*

"Ölüm dərəsi" dəhşətlərini orada saxlanılan və düşərgədəki bütün əzab-əziyyətlərin şahidləri olan üç nəfərdən biri - Aleksandr Çernov sonralar belə dilə gətirib: "Dünya bu düşərgədən xəbərsiz idi. Serpantinkada nə sovet, nə insanlıq, nə də dini qanunlar işləyirdi. Bu düşərgəni idarə edənlərin öz qanunları var idi. Serpantinka təkcə güllələnmə düşərgəsi deyildi. Bu düşərgədə həmçinin uzun müddətə sürgünə göndərilənlər də saxlanılırdı. Amma düşərgənin cəlladları üçün bunun fərqi yox idi. Kimi nə vaxt istəyirdilər o vaxt da güllələyirdilər. Güllələnmə prosesi yalnız gecələr həyata keçirilirdi. Gecə saat 12-dən sonra barakın qapısını açırdılar, beş nəfər çıxarıb aparırdılar. Proses zamanı ərazidəki iki traktorun mühərriki işə salınırdı ki, ətraf qəsəbə və kəndlərdə atəş səsləri eşidilməsin. Beləliklə, səhər açılana qədər barakdan məhbusları beş-beş çıxararaq güllələyirdilər. Meyitlər ətrafdakı axar çaya atılırdı və ya məhbusların özləri qazdığı xəndəklərə doldurulurdu. Ümumiyyətlə, Serpantinkadan danışarkən heç bir insanlıqdan söz açmaq mümkün deyil. Bəlkə də meşələrdə yaşayan vəhşi bir heyvanı həmin düşərgədə saxlasaydılar, bir ay dözməzdi..."

Düşərgənin rəisi Stepan Qaraninin adı arxiv sənədlərində də, şahidlərin ifadələrində də xüsusi qeyd olunub. Aleksandr Çernov deyib ki, Stepan Qaraninə bütün dövrlərin ən amansız cəlladı adını vermək olar: "Qaranin insan cildində görünən vəhşi bir yırtıcı idi. Onun ərazidə, yaxud da baraklarda görünməsi bir neçə dəqiqə ərzində bir neçə nəfərin güllələnməsi demək idi. Ən adi şeylərə görə o, tapançasının tətiyini çəkməyə tənbəllik etməzdi. O, gün ərzində ən azı 10-15 ölüm hökmünü özü icra edirdi. Güllələnməni icra edən digər əməkdaşlar bir-iki atəşlə "məsələni" həll edirdilərsə, Qaranin bu işi çox "səbirlə" görürdü. O, əvvəlcə məhbusu yaralayırdı, sonra yaraladığı əzaya növbəti atəşi açırdı və beləliklə, əzab verirdi..."

Müsahibələrində Aleksandr Çernov düşərgədə saxlanıldığı müddətdə bir dəfə də olsun yuxarı qurumların, "QULAQ"ın vəzifəli şəxslərini görmədiyini söyləyib.

### *"Ölüm dərəsi"nin sonu...*

"Ölüm dərəsi"nin fəaliyyətinin dayandırılması ilə bağlı heç bir arxiv sənədinə rast gəlinməyib. Serpantinka düşərgəsi ərazisində heç bir izin qalmaması üçün əllərindən gələni ediblər. Bəzi araşdırmaçıların fikrincə, düşərgə 1953-cü ildə yandırıldıqdan sonra ərazi şumlanıb. İzləri tamamilə yox etmək üçün sənədlər də məhv edilib. Ancaq bütün cəhdlərə baxmayaraq, zalım Stepan Qaranin haqqında arxivdən bəzi məlumatları əldə etmək mümkün olub. Bəlli olub ki, düşərgə rəisinin qəddar əməlləri onun həbsi ilə nəticələnib. Stepan Qaraninin nə zaman həbs edildiyi dəqiq bilinməsə də, sənədlərdən məlum olub ki, o, 1950-ci ildə Peçorskdakı islah əmək düşərgəsində xəstəlikdən ölüb.

Cinayət əməllərini gizlətməyə, unutdurmağa çalışanlar heç zaman öz məqsədlərinə çata bilməyiblər. Düşərgənin yerləşdiyi, qızıl və digər qiymətli metallarla zəngin olan ərazidə də repressiya illərində burada törədilmiş dəhşətli hadisələrin izləri aşkara çıxıb. Belə ki, mütəxəssislər ərazidə işləyərkən qazıntılar zamanı çoxlu sayda insan sümükləri, silah qalıqları, məhbusların istifadə etdikləri əşyalar tapıblar.

1991-ci ildə isə "Ölüm dərəsi"nin yerləşdiyi ərazidə, düşərgədə öldürülən on minlərlə günahsız insanın xatirəsinə bir neçə kiçik abidə qoyulub.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

NÜRNBERQ MƏHKƏMƏSİ

# Nasist hərbi cinayətkarların sonu

**Hələ 1942-ci ildə SSRİ nasist cinayətkarları mühakimə etmək üçün hərbi tribunal yaradılması barədə təklif irəli sürmüşdü. İkinci Dünya müharibəsinin səbəbkarlarının beynəlxalq məhkəmədə əməllərinə görə cavab verməli olduqlarını Sovet İttifaqının rəhbəri İosif Stalin dəfələrlə bildirmişdi.**

Çörçil bu fikirdə idi ki, əsas hərbi cinayətkarları əsir götürən kimi edam etmək lazımdır. ABŞ-ın prezidenti Ruzveltə görə isə prosedur çox hüquqi olmamalı, məhkəməyə müxbirlər, fotoqraflar buraxılmamalı idi.

1945-ci ilin iyun-avqust aylarında keçirilən London konfransında İkinci Dünya müharibəsində qalib gələn dövlətlər Beynəlxalq hərbi tribunalın yaradılması barədə razılığa gəldilər. Həmin il avqustun 29-da əsas hərbi cinayətkarların siyahısı dərc olundu.

Məhkəmə Almaniyanın Nürnberq şəhərində keçirildiyi üçün bu adla adlandırıldı. Məhkəmədə Nasional Sosialist Alman Fəhlə Partiyası "insanlığa qarşı cinayət, müharibə cinayəti, dünyada sülhə qarşı işlənən cinayət və müharibəyə səbəb olmaq" cinayətlərindən mühakimə edildi. Dünyada sülhə qarşı işlənən cinayət tərəfindən ilk dəfə bu məhkəmədə iddia qaldırıldı.

Hər bir müttəhim məhkəmə prosesinə bir ay qalmış ittiham materialları ilə tanış oldu. Həmin materialla tanış olduqdan sonra, 1945-ci il oktyabrın 25-də nasist partiyasının funksioneri Robert Ley özünə qəsd etdi. Nasist hərəkatına xeyli maddi yardım göstərmiş Qustav Kruppun isə demək olar ki, bəxti gətirdi. O, səhhətindəki problemlərə görə məhkəmə prosesi başlamamış azad edildi. Siyahıda adı olan digər müttəhimlər hakim qarşısına çıxarıldı.

London sazişinə əsasən, beynəlxalq hərbi tribunal dörd dövlətin - ABŞ, SSRİ, Böyük Britaniya və Fransanın nümayəndələrindən təşkil olundu. Məhkəmənin sədri britaniyalı hüquqşünas Ceffri Lourens idi. Tribunal 217 günə yekunlaşdı. Ümumi olaraq 24 min saat ərzində 403 dinləmə keçirildi. İclas stenoqramları yazılmış sənədlərin hündürlüyü 10 metr idi. Arxivə 3 milyon sənəd və uzunluğu 2400 metr olan kinolent göndərildi. Çoxsaylı şahid ifadələri, əsir düşərgələrinin sakinləri, foto və kino sənədlərdən sübut kimi istifadə olundu. Həmçinin ittiham olunanlar tərəfindən imzalanmış və yazılmış əmrlər, raportlar da sübut kimi istifadə edildi.

Üçüncü Reyxin ali dövlət və hərbi xadimləri Almaniyanın Nürnberq şəhərində 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək təqsirləndirilən şəxs qismində beynəlxalq hərbi tribunal qarşısında dayandı.

Hökm 1946-cı il sentyabrın 30-da və oktyabrın 1-də oxundu. Herman Gorinq, İoahim fon Ribbentrop, Vilhelm Keytel, Ernst Kaltenbrunner, Alfred Rozenberq, Hans Frank, Vilhelm Frik, Yulius Ştrayxer, Martin Borman, Frits Zaukel, Alfred Yodl və Artur Zeys-İnkvart asılmaqla ölüm cəzasına məhkum olundular. Hans Friçe, Frans fon Papen və Yalmar Şaxta bəraət verildi. İttiham olunan digər müttəhimlər barədə müxtəlif həbs cəzaları üzrə hökm oxundu.

***"Azərbaycan"***

**Dünya olduğu kimi**

# Ən soyuq və ləzzətli desert

**Dünyanın ən qədim desertlərindən sayılan dondurmanın yaşının 5000 ildən çox olduğu təxmin edilir. Hələ e.ə. 3000-ci ildə Çinin zəngin evlərində süfrələrə buzla və ya qarla qarışdırılmış meyvə şirələri verilirdi. Reseptlər və üsullar gizli saxlanılırdı və yalnız eradan əvvəl "Şi - kinq" kitabında - qədim mahnıların ehkamlar toplusunda reseptlərin sirri açılmışdı.**



Dondurma hazırlanması reseptinin nə zaman, harada və kim tərəfindən fikirləşib tapılması bəlli deyil. Məlum olan təkcə budur ki, hələ Makedoniyalı İsgəndərin dövründə meyvələri və giləmeyvələri qarda dondururmuşlar. Qar gətirməkdən ötrü dağlara sürətli qaçmaq üçün xüsusi təlim keçmiş qulları göndərirmişlər. Onlar elə sürətli qaçmalıydılar ki, qar mənzil başına çatdırılana qədər əriməsin.

Məhsul yığımı zamanı soyudulmuş şirələrin istifadəsini təsvir edən daha bir qədim mənbə İsrail çarı Solomonun məktublarıdır. Məşhur antik dövr həkimi Hippokrat dondurmanı sağlamlığın möhkəmlənməsi üçün tövsiyə edirdi.

Roma imperatoru Neronun (b.e.ə. I əsr) sarayında soyudulmuş və şirinləşdirilmiş şirələrdən geniş istifadə edilirdi. Onların hazırlanması üçün qarı uzaq Alp buzlaqlarından gətirirdilər, qarın uzun müddət saxlanması üçün isə geniş tutumlu qar zirzəmiləri tikirdilər.

Dondurma Avropaya XIII-XIV əsrdə yaşamış İtaliya səyyahı və yazıçısı Marko Polonun sayəsində gəlib. O, Çində olarkən dondurmanı o qədər sevib ki, öz vətəni İtaliyaya qayıdarkən yerli kulinarlara onun hazırlanmasının bəzi reseptlərini verib. XVI əsrdə dondurma Fransanı, daha sonra Almaniyanı fəth edib.

XVI əsrin ortalarında Fransa kralının sarayında işləyən məşhur italiyalı kulinar Bentalenti dondurmanın və sərinləşdirici içkilərin hazırlanmasında çox böyük şöhrət qazanmışdı. Dondurmanı Fransa kraliçası Yekaterina Mediçi də çox sevirmiş. O, ziyafətlərdə öz qonaqlarını dondurmaya və onun öz reseptinə əsasən soyudulmuş naringi və portağal şirəsinin əlavə edildiyi şərbətə qonaq edirmiş. Fransa kralının müşavirləri dərhal dadlı dondurmanın reseptini və hazırlanma texnologiyasını əldə etməyə çalışırmışlar. Lakin resept dövlət sirrinə çevrilmişdi. Bu sirri yayanların kral xəzinəsini oğurlayanlardan daha ağır cəzalandırılması halları da az olmayıb.

Həmin dövrdə dondurmanın reseptinin yayılmasına görə sərt qadağalar onun yayılmasına mane ola bilmədi. Çox tezliklə dondurma Versaldan fransız zadəganlarının malikanələrinə gedib çıxdı.

Hələ dondurmanın hazırlanması kütləviləşməmişdən əvvəl onun reseptini bilən aşpazlar bunu sirr kimi gizli saxlayırdılar. Dondurma tez-tez çox güclü qalmaqalların, mübahisələrin səbəbinə çevrilirdi. Əyanlar üçün öz şəxsi dondurmaçısına malik olmaq şəxsi bərbərə və ya dərziyə malik olmaq qədər vacib idi.

Dondurmanın İngiltərəyə gedib çıxmasının əsl səbəbkarı isə Fransa kraliçası Yekaterina Mediçinin nəvəsi Henrietta Mariya olub. 1625-ci ildə Henrietta Mariya İngiltərə kralı I Karla ərə getdiyi zaman özünün şəxsi aşpazı və qənnadı ustası Herald Tissaynı da həmin ölkəyə aparır. Tissayn dondurma hazırlanmasının bir çox sirləri bilirdi. Maraqlıdır ki, Tissayn öz "sirlərini" açmağa yalnız 1649-cu ildə I Karlın edamından sonra cürət edib. Beləliklə, dondurmanın hazırlanma sirlərini İngiltərə də mənimsəyib. 1700-cü ildə ingilislər Amerikaya dondurmanın hazırlanma reseptlərini aparmaqla burada da onun yayılmasına səbəb olublar.

1649-cu ildə fransız kulinarı Jerar Tirsen vanilli dondurmanı yaradandan sonra buzlu desertin resepti daim yenilənməyə başlanır və getdikcə daha yeni-yeni növlər yaranır. 1782-ci ildə Parisdə kafedə müştərilərə artıq səksən növə yaxın dondurma təklif edilirdi.

XVII əsrin ortalarında dondurma Fransa paytaxtının bir çox sakinləri üçün əlçatan idi. Artıq 1676-cı ildə Parisin 250 qənnadı ustası dondurmaçılar korporasiyasında birləşmiş, həmin illərdə dondurma artıq ilboyu istehsal edilməyə başlanılmışdı.

III Napoleonun dövründə Parisdə ilk dəfə stəkanlarda plombir dondurması, İtaliyada dondurmadan assorti, Avstriyada isə qlyase qəhvəsi və şokoladlı dondurma istehsal edilməyə başlanıldı. Bu dövrdə xırda doğranmış badam və marsipanla qarışdırılmış dondurulmuş qaymaq, çiyələkli və sürtgəcdən keçirilmiş şokoladlı qat-qat dondurma yarandı.

## İlk çubuqlu dondurma

**İlk çubuqlu dondurmanın ixtiraçısı ABŞ-da kiçik bir dondurma dükanı işlədən Kristian Nilson olub. O, 1919-cu ildə şokoladla dondurmanı birləşdirərək yeni növ dondurmanın hazırlanması texnologiyasını işləyib hazırlayıb.**



1923-cü ildə isə ona çubuqlu dondurma istehsalı ideyasına görə patent verilib. Beləliklə, dünya "eskimo" dondurmaları ilə tanış olub. "Eskimo"nun amerikalı tərəfindən ixtira edilməsinə baxmayaraq, bu növ dondurmanın istehsalında fransızlar amerikalıları üstələyiblər.

Fransız mənbələrinə əsasən, "eskimo" adı tamamilə təsadüfən yaranıb. Paris kinoteatrlarından birində eskimosların həyatı barədə film nümayiş etdirilib. O dövrdə kinoteatrların repertuarı kifayət qədər nadir hallarda dəyişdiyinə görə eskimoslar barədə filmə bir neçə dəfə baxan və on iki porsiya şokoladlı dondurma yeyən tamaşaçılardan biri bu dondurmanı "eskimo" adlandırıb. Bundan sonra həmin dondurma "eskimo" adlandırılmağa başlanılıb.

## İlk dondurma aparatı

**Dünyanın ilk mexanikləşdirilmiş dondurma aparatı 1840-cı illərdə hazırlanıb.**




1843-cü ildə evdar qadın olan Nensi Johnson dondurma istehsalı üçün ilk əl aparatı modelini yaradıb. Bu aparatın hazırlanma texnologiyası dondurmanın daha tez və kütləvi şəkildə istehsalına imkan verib. Onun aparatı əl mikseri prinsipinə əsasən işləyib.

İngiltərənin London şəhərində dondurma istehsalı ilə maraqlanan ingilis Tomas Masterin daha sonra hazırladığı dondurma aparatı isə fırlanan üçləçəkli qalay küpdən ibarət olub. Masterin aparatı dondurma çala bilməklə yanaşı, onu soyuda və dondura bilirmiş.

Böyük həcmdə dondurma istehsalı isə yalnız buzun alınmasının və saxlanmasının kifayət qədər məhsuldar üsullarının, soyuducu qurğuların, qarışdırıcı və doğrayıcı elementli maşınların tətbiqindən sonra mümkün oldu. 1902-ci ildə dondurma üçün soyuducunun ixtira edilməsi bu desertin istehsalını genişləndirməyə imkan verdi.

## Balıqlı, pomidorlu, sarımsaqlı, istiotlu…



Adətən dondurma soyuq, şirin desert kimi qəbul edilir. Dünyada ən çox sevilən dondurmalar da şokoladlı, vanilli və meyvəli dondurmalardır. Ancaq müştərilərinə dondurma üçün yad olan dadlarda desert təklif edənlər də var. Məsələn, italyan şirniyyatçıları müştərilərinə duzlu, eyni zamanda göbələkli, yerkökülü, balıqlı və s. dondurmalar da təklif edirlər.

Öz müştərilərinə ən çox dondurma növünü Venesuelada yerləşən "Coromoto" dondurma kafesi təklif edir. Bu kafedə müştərilərə 700-dən çox dondurma növü təqdim edilir. Kafeni 1980-ci ildə Portuqaliyadan olan Manuel da Silva Oliveyra açıb. Bu gün də kafenin sahibi öz müştərilərinə yüzlərlə orijinal resept təklif edir. Bunların arasında tunesli vafli borucuğu, soğan, donuz cızdağı, pivə, yerkökü, pomidor, paxla, forel, krevetka, kalmarlı, spagetti, sarımsaq, qızılgül ləçəkləri ilə olan dondurmalar var. Delikateslərin arasında hətta tərkibində Çili bibəri olan həddindən artıq acı dondurma da var.

## İlk dondurma kafesi

Dünyada ilk dondurma kafesi Parisdə açılıb. İtaliyalı Françesko Prokopio Di Koltelli tərəfindən açılan, "Cafe Procope gelatonu" adlandırılan kafe bu gün də fəaliyyətini davam etdirir.

1851-ci ildə ABŞ-ın Pensilvaniya ştatında ilk dondurma fabriki açılıb. Onu Filadelfiya fermerlərindən süd məhsulları alaraq onu Baltimorda satan süd alverçisi Jacob Fussell yaradıb.

Dünyanın ən böyük dondurma mağazası İngiltərədədir. 2015-ci ildə istifadəyə verilən bu mağazanın sahəsi 851 kvadratmetrdir.




## Ən böyük dondurma deserti Kanadada hazırlanıb



XVIII əsrdə yaşamış alman şair-dramaturqu, mütəfəkkiri Yohann Volfqanq fon Hötenin dövründə dondurma yemək çox baha başa gəlirdi. Höte bütün həyatı boyu dondurma haqqında heyranlıqla danışıb.

Tarixdən bizə belə bir rəvayət gəlib çatıb ki, dondurmanın pərəstişkarları arasında Napoleon Bonapart da olub.

ABŞ ordusunda İkinci Dünya müharibəsinin bitməsi dondurma yeməklə qeyd olunub.

Amerikalı ailələrin 98 faizi soyuducusunda həmişə dondurma saxlayır.

Dünyanın ən böyük dondurma deserti (sundae) 1988-ci ildə Kanadanın Alberta əyalətində hazırlanıb. O, 24 ton ağırlığında olub.

Yaz aylarında ən çox dondurma istehlak edən ölkə Türkiyədir. Kanadada isə dondurma yazdan daha çox qışda istehlak olunur.

## Dünyanın ən bahalı dondurmaları



Dünyanın ən bahalı deserti ABŞ-ın Nyu-York şəhərindəki "Serendipity" restoranının menyusuna daxil edilib. 2007-ci ilin 7 noyabrında ən bahalı desert kimi restoranın menyusuna əlavə edilən "Frrrozen Haute Chocolate" dondurma desertinin qiyməti 25.000 dollar olub. Dondurma dünyanın ən bahalı 14 kakaosu olmaqla, ümumilikdə 28 növ müxtəlif kakaolardan və qızıldan istifadə edilməklə hazırlanıb. Desert qida üçün yararlı olan 23 karatlıq qızılla bəzədilib. O, yeməli qızılla əhatələnmiş bir qədəhdə servis edilib. Dondurmanın üzərində 1 karat ağ brilliant olan bilərzik olub. Dondurma qızıl qaşıqla yeyilib, qaşıq özü də ağ və şokolad rəngli brilliantlarla bəzədilib.

Dünyanın ən bahalı dondurmasının daha sonra 2015-ci ildə Dubaydakı "Scoopi Cafe"də müştərilərə təklif edildiyi açıqlanıb.

'Black Diamond' ("Qara almaz") adı ilə müştərilərə təqdim edilən dondurma Madaqaskar vanilindən, İran zəfəranından, İtalyan trüfelindən və 23 karatlıq yeməli qızıl pulcuqlardan hazırlanıb. Desert "Versace" qabı və qaşığı ilə servis edilərək süfrəyə verilib. Üzərinə qızıl pulçuqlar səpələnmiş dondurmanın bir topunun qiyməti 817 dollar olub.

## Ən çox dondurma yeyənlər

**Dünyada ən çox dondurma istehlak edən ölkə Yeni Zelandiyadır. Burada adambaşına düşən illik istehlakın həcmi 28,4 kq-dır. Yeni Zelandiyadan sonra ən çox dondurma yeyənlər amerikalılardır. ABŞ-da adambaşına düşən dondurma istehlakının həcmi 20,8 kq-dır. Avstraliyada bir nəfər il ərzində 18, Finlandiyada 14 kq dondurma yeyir.**



Çində il ərzində 5,9 milyard kq dondurma satılsa da, burada əhali çox olduğu üçün adambaşına düşən dondurmanın miqdarı az olur. Bu səbəbdən çinlilər dünyada ən az dondurma yeyən xalq hesab edilirlər.

Dondurma sevən amerikalıların 90 faizi iyul ayının üçüncü bazar gününü "Dondurma günü" kimi bayram edir. İlk dəfə ABŞ Prezidenti Ronald Reyqan dondurmaların ləzzətinin dadılması üçün iyul ayını "Milli dondurma ayı" elan edib. O, həmçinin iyulun üçüncü bazar gününün bayram kimi qeyd edilməsi barədə sərəncam imzalayıb. Bu ayda dondurma müsabiqəsi keçirilib və dondurmanı ən tez bitirən iştirakçı müsabiqənin qalibi olub.

Dünyanın dondurma istehsalı bazarında Çin ən çox paya malik olan ölkədir. Çində il ərzində təxminən 4 milyard kq-dan çox dondurma istehsal edilir. ABŞ dondurma istehsalına görə Çindən sonra ikinci yeri tutur. Burada il ərzində 3 milyard kq-a yaxın dondurma istehsal edilir.

2022-ci ilə qədər dünyada dondurma bazarının dəyərinin 89 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Şirin qidalara olan tələbatın artması bu sektordakı inkişafa səbəb olan əsas amillərdən biridir. Dondurma istehsalçıları satdıqları məhsulların faydalarını getdikcə daha çox artırmağa çalışırlar. Onlar istehlakçıları öz məhsullarına cəlb etmək üçün daim yeni çeşidlər təqdim etməyə çalışırlar. Çin, Braziliya və Hindistan kimi inkişaf etməkdə olan bazarlarda dondurma istehsalı getdikcə artır.

*İlhamə İSABALAYEVA, "Azərbaycan"*



**Sağlıq olsun**

# Dondurulmuş şəfa

**Qızmar yay aylarının vazkeçilməz təamlarından olan dondurma sərinləşdirici, dadlı və ləzzətli olmaqla yanaşı, həm də insan orqanizminə faydalı olması ilə də diqqət çəkir. Xüsusilə həkimlər dondurmanın sümüklər üçün əsas elementlərdən olan kalsium və fosfor deposu olduğunu vurğulayır. 100 qr süddəki kalsium və fosforun miqdarının konsentrasiyasındakı sıxlıqdan asılı olaraq dondurma fayda verə bilər. Belə ki, 100 qram dondurmada 135 mq kalsium olduğu halda bu miqdar süddə 115 mq-dır. Eyni zamanda 100 qram dondurmada fosfor 115 mq, süddə 92 mq-dır.**



Dondurma C, E, D, B6, B12 və K vitamini baxımından çox zəngin qidadır. Tərkibindəki K vitamini sayəsində qan laxtalanmasının qarşısını alır və qan axınını sürətləndirir. Antioksidant xüsusiyyətləri ilə orqan və sinirlərin və immunitet sisteminin fəaliyyətini tənzimləyir. Yağ, zülal və karbohidratlarla da zəngin olan dondurma böyrək daşlarının əmələ gəlməsinin qarşısını alır.

66 qram dondurmanın enerji miqdarı 137 kilokaloridir. Dondurmanın tərkibində 2,31 q protein, 7,26 q yağ, 15,58 q karbohidrat, 0,5 q pəhriz lifi, 14,01 q şəkər var. Bu miqdarda dondurma istehlak edən insanın D vitamini ehtiyacının 33, A vitamininin 11, B12-nin 10, fosforun 8 və kalsiumun 8 faizi ödənir.

### *Xoşbəxtliyin açarı*

Mütəxəssislərin fikrincə, dondurma faydalı xüsusiyyətləri ilə yanaşı, insana verdiyi enerji, stress və yorğunluğu azaltma gücünə də malikdir. Bol miqdarda karbohidrat ehtiva etdiyi üçün dondurma yeyərək daha çox enerjili olmaq mümkündür. Tərləmənin qarşısını alan və soyuq içkilərdən daha yaxşı təsir gücünə malik olan dondurma yorğun şəxslərə yenidən gümrahlıq verir.

Südlü dondurmalarda olan triptofan maddəsi insana xoşbəxtlik və rahatlıq verən bir hormondur. Bu baxımdan həkimlər çox stress keçirən insanlara çəkinmədən dondurma yemələrini məsləhət görürlər.

### *Çox yemək zərərlidir*

Dondurmanın həddindən artıq istehlakı isə bəzi zərərli təsirlərə səbəb ola bilər. Bu qida yağ tərkibli olduğundan çox yeyildiyi təqdirdə qanda xolesterinin yüksəlməsinə, yüksək qan təzyiqinin yaranmasına səbəb ola bilər. Eyni zamanda çox miqdarda şəkər ehtiva etdiyi üçün qanda şəkərin yüksəlməsinə gətirib çıxarar.

İçindəki kalsiumun çox olması səbəbindən iştahanın azalması, böyrək ağrısı, ürəkbulanma və depressiya yaradar. Acqarına istehlak edilməsi məsləhət görülməyən dondurma qəbulu mədəaltı vəzin problemlərinə, sinus infeksiyalarına yol açar.

Həkimlər aşağıda sadalanan xəstəliklər zamanı dondurma yeməməyi məsləhət görür:
- diabet;
- mədəaltı vəzin iltihabı;
- öd kisəsinin iltihabı;
- qastrit, mədə və 12 barmaq bağırsağın xorası;
- miqren, baş ağrıları;
- beyin qan dövranının pozulması;
- ürəyin işemik xəstəliyi.

### *Diqqət etməli olduğumuz məqamlar*

Türkiyəli qidalanma və pəhriz mütəxəssisi Yeşim Çeliyin fikrincə, dondurmanı yeyən zaman ən diqqət etməli olduğumuz məqam onun sağlıqlı və gigiyena qaydalarına uyğun hazırlanmış olmasıdır. Süd mikroorqanizmlərin törəməsi üçün imkan yaratdığına görə tez xarab olur. Buna görə də xüsusilə dondurmanın hazırlandığı südün pasterizə olmasına fikir vermək lazımdır. İcazəsiz istehsal edilən və son istifadə tarixi keçmiş məhsullar əsla alınmamalıdır.

Dondurma acqarına yeyildikdə iştahı öldürür. Buna görə tox ikən və ara qida kimi yeyilməsi məsləhətdir. Dondurma soyuq şirniyyat olduğundan birdən-birə deyil, ağızda əridilərək udulmalıdır. Tez udularsa, mədə sancmalarına səbəb ola bilər.

Badamcıq əməliyyatından sonra bəzi həkimlər sonrakı ağırlaşmaları aradan qaldırmaq üçün dondurma yeməyi tövsiyə edirlər. Lakin tənəffüs yolları infeksiyalarında, udlaq və badamcıq iltihablarının müalicəsi müddətində dondurma məsləhət görülmür.

Y.Çelik bildirir ki, satışda şəkər xəstələri üçün də hazırlanmış dondurma əldə etmək mümkündür. Aparılan tədqiqatlarda laktoza dözümsüzlüyü olan insanlarda gündə 2 dəfə dondurma yeyildiyi halda bununla bağlı hər hansı mənfi əlamət müşahidə olunmayıb. Dondurma yavaş həzm edildiyi üçün bu insanlar tərəfindən asanlıqla qəbul edilir.

Keyfiyyətinə əmin olduğunuz dondurmanı bir az meyvə əlavə edərək yemək daha faydalıdır. Xüsusilə kalori miqdarı az, su tərkibi çox olan gilənar ən ideal seçimlərdən biridir.

### *Bu hal uşaqlarda köklüyə səbəb ola bilər*

Uşaqların gündə 100 qr-dan artıq dondurma yeməsi köklüyə səbəb ola bilər. Həmçinin 1 yaşdan kiçik olan uşaqlara dondurma verilməsi qida allergiyası yarada biləcəyi üçün təhlükəlidir.

Mütəxəssis qeyd edir ki, pəhriz saxlayan insanların adətən şirniyyat kimi dondurma yemələri məsləhət görülür. Lakin bu zaman miqdara diqqət etmək lazımdır. Dondurma digər şirniyyatlara nisbətən daha az kaloriyə malik olmaqla daha bəsləyici qida hesab olunur. Balanlaşdırılmış və sağlam bir qidalanma proqramına, həmçinin idman hərəkətləri qaydalarına əməl etməklə həftədə 1-2 dəfə qatqısız dondurma yeyilməsi tövsiyə olunur.

Ancaq dondurmanın kalori miqdarı istehsal zamanı onun tərkibinə qatılan məhsullardan asılı olaraq dəyişə bilər. Aromatik maddələr, biskvit, vafli, fındıq və fıstıq kimi dadlandırıcılar bu göstəricini artıra bilər. Məsələn, 100 qr sadə dondurmada 140 kalori var. Bu miqdarda karamelli dondurma - 265, vanilli - 235, bananlı - 225, şokoladlı - 220, çiyələkli isə 180 kalori ehtiva edir.

Dondurma əslində xəstəliyə səbəb olmur. Ancaq istehsal əsnasında qida maddələri nizamnaməsinə əməl etmədən sintetik maddələrdən istifadə olunması, düzgün paylama və saxlama qaydalarına əməl olunmaması xəstəlik yarada bilər.

Dondurmanın boğazda faringit yarada biləcəyi düşüncəsi də bəzi insanları bu qidadan imtina etməyə vadar edir. Lakin bunun da qaydaları var, dondurmanı bədən temperaturunun həddindən artıq yüksəldiyi vaxtlarda sərinləmək məqsədilə, qızmar istilərdə isə çox miqdarda yeməməyə diqqət yetirmək lazımdır. Mümkün olduğu qədər yavaş-yavaş yeyilsə, sağlamlıqla bağlı heç bir problem yaranmaz.

### Bilirik?

- yaxşı dondurma çox gec əriyir, dərhal suya dönmür;
- dondurmanın qəbulu bəzi insanlarda başağrısına səbəb ola bilər. Bu damarların sıxılması ilə izah olunur;
- dondurmanı seçdikdə onun tərkibinə fikir verin. Yaxşı dondurmanın tərkibində kokos, palma və digər bitki yağları olmamalıdır, yalnız təbii kərə yağı, qaymaq və süd ola bilər;
- yaxşı dondurma ağappaq olmamalıdır. Bu o deməkdir ki, dondurma təbii süddən yox, soyadan hazırlanıb. Təbii dondurma növündən asılı olaraq süd rəngində (südlü dondurma) və ya sarımtıl (daha yağlı plombirlər) ola bilər;
- xarici ölkələrdə ənənəvi şirin dondurma ilə yanaşı, duzlu, istiotlu, qızarmış kartof, pendir, soğan, göbələk və s. dadı olan dondurmalar da satılır.

**Yaşam**

## Qışda da dondurma?

Adətən dondurmanı yay aylarında yeyirlər. Qışda istehlak edilərsə, bunun xəstəliyə səbəb olacağını bildirirlər. Amma mütəxəssislər bu alışqanlığın yanlış olduğunu, qışda da rahatlıqla



dondurma yeyə biləcəyimizi, hətta bunun immunitetimizi gücləndirəcəyini deyirlər. Türkiyəli professor doktor Oğuz Özyaral məlumat verir ki, bədənin yalnız isti fəsillərdə deyil, bütün mövsümlərdə dondurmaya ehtiyacı var. İmmunitet sistemini gücləndirdiyi üçün orqanizmi qripə qarşı qoruyur, mikroblarla mübarizə aparır. Buna görə də qar yağanda belə dondurma istehlak edə bilərsiniz: "Dondurma uşaqlarda boy artımına səbəb olur və buna görə də onların hər fəsildə bunu yeməsi məsləhətdir. Həmçinin uşaqlar xəstələnəndə də dondurma yeyə bilərlər. Dondurma orqanizmi infeksiyalara qarşı qoruyur və mikrobların inkişafına mane olur. Xəstəliklər zamanı bədənin istehlak etdiyi mayenin bərpasını təmin edir. Çünki tərkibində yüzdə 90 - a qədər su var".

**Araşdırma:**

## Olar, olmaz...

**Britaniyalı alimlərin apardığı araşdırmalar nəticəsində məlum olub ki, hər kəs tərəfindən sevilən dondurmaları günəş altında yemək olmaz. Çünki günəşin ultrabənövşəyi şuaları dondurma ilə reaksiyaya girdikdə insan orqanizmində xərçəng riskini artırır. Buna görə də dondurmanı mümkün qədər kölgəsi olan məkanlarda, ən yaxşısı isə ev şəraitində yemək daha məqsədəuyğundur.**



Alimlər onu da müəyyən ediblər ki, dondurmanı qaşıqla yemək də zərərlidir. Dondurmanın tərkibində olan maddələrə dəmir tərkibli qaşıq dəydikdə orada maddələr mübadiləsi pozulur ki, bu da zəhərlənməyə səbəb ola bilər. Mütəxəssislər dondurmanı ən yaxşı halda yalayaraq yeməyi məsləhət görürlər. Bu cür dondurma yeməyə kompleksli insanlar isə taxta qaşıqlardan istifadə edə bilərlər.

Üstəlik uzun müddət soyuducuda qalmış dondurmalardan istifadə etmək də təhlükəlidir. Dondurma alarkən onun istifadə müddətinə baxmağı unutmayın. Bəzən istehlakçılar ötən ildən soyuducularda qalmış dondurmaları müştərilərə təqdim edirlər. Bunun sonu isə ağır fəsadlar, zəhərlənmə, hətta ölüm ilə də nəticələnə bilər. Buna görə də istehlakçılar bu cür konservant qidalardan istifadədə son dərəcə diqqətli olmalıdırlar.

**Şəfa**

## Əriməyən dondurmanın min bir faydası

**Dünyanın ən ləzzətli dondurmalarından biri olaraq göstərilən və keçi südündən hazırlanan Türkiyəyə məxsus Qəhrəmanmaraş (Maraş) dondurması yalnız dadı və bənzərsiz sıx quruluşu ilə deyil, həm də qidalandırıcı olması ilə diqqət çəkir. Bu dondurmanın sağlam yağlar əldə etmək və gündəlik protein qəbulunu artırmaq üçün yaxşı seçim olduğu bildirilir.**



Heç əriməyərək fiziki qanunlara qarşı çıxan və saqqız kimi uzanan Maraş dondurması kalsium, fosfor, kalium, maqnezium, A və B vitaminləri ilə zəngindir. Zülal baxımından da zəngin olan dondurma bədənin ehtiyac duyduğu vitamin və mineralları təmin edərək əzələlərin nizamlı olaraq büzülməsinə və toxuma itkisinin qarşısının alınmasına kömək edir. Güclü antioksidant olan Maraş dondurması orqan və sinirlərin işini də tənzimləyir. Bədənin immunitet sistemini gücləndirir və yaddaş, konsentrasiya və toxumaların bərpası kimi bir çox vacib funksiyanı yerinə yetirir.

100 qram Maraş dondurmasının kalori miqdarı 175 kilokaloridir. Aşağı kalorili olduğuna görə qlükoza ehtiva etmədiyi və keçi südü ilə hazırlandığı üçün yeməkdən sonra şişkinlik hissi yaratmır. Buna görə də pəhriz saxlayarkən təhlükəsiz şəkildə istehlak edilə bilər. Əlbəttə ki, pəhriz saxlayanlara kalorilərinin çoxu karbohidratlardan gəldiyindən porsiya nəzarətinə diqqət yetirilməsi tövsiyə olunur.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*




# XVI Tokio Yay Paralimpiya Oyunları

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ PARALİMPİYA KOMİTƏSİ

## "Azərbaycan idmanı Tokioda öz gücünü göstərdi"

"Azərbaycan idmanı Tokio Paralimpiya Oyunlarında öz gücünü göstərdi. Nəhayət, Tokioda Azərbaycanın Dövlət Himni səsləndi, bayrağımız ən yüksək zirvədə dalğalandı. Bu münasibətlə mən bütün Azərbaycan xalqını təbrik edirəm".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) prezidenti İlqar Rəhimov Tokio Paralimpiya Oyunlarının üçüncü günündə idmançılarımızın parlaq qələbələrini şərh edərkən bildirib.

Tokioda Paralimpiya Oyunlarının üçüncü gününün paralimpiyaçılarımız üçün çox uğurlu olduğunu bildirən AMPK prezidenti deyib: "Təbriklərə görə təşəkkür edirəm. Dünən Paralimpiya Oyunlarının üçüncü günü idi. Bizim komandanın çıxışa başlamasının isə ikinci günü idi. Bildiyiniz kimi, biz elə birinci gün bürünc medal qazandıq. Dünən isə daha möhtəşəm qələbələr əldə etdik. Dünənki nəticələrimiz, hesab edirəm ki, çox tarixi nəticələrdir. İdmançılarımız çox böyük bir qürurla, iradə ilə, mübarizə hissi ilə zəfərə doğru getdilər və nəticədə biz üç qızıl və bir bürünc medal qazana bildik. Bu münasibətlə mən bütün Azərbaycan xalqını təbrik edirəm. Azərbaycan idmanı öz gücünü bütün dünyaya göstərdi. Nəhayət, Tokioda Azərbaycanın Dövlət Himni səsləndi, bayrağımız ən yüksək zirvədə dalğalandı".



Bu möhtəşəm qələbələrin əldə edilməsində göstərilən qayğıya və diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə, bütün Azərbaycan xalqına təşəkkürünü bildirən İ.Rəhimov deyib: "Bu qələbələrin əldə edilməsinə görə mən Azərbaycan xalqına təşəkkürümü bildirmək istəyirəm. Bizim hörmətli, sevimli, hamımızın and yeri, qürur yeri olan cənab Prezidentimizə təşəkkür edirik. Əgər onun bizim üzərimizdə bu əziyyəti, bu köməyi olmasa idi, təbii ki, biz bu qələbələri əldə edə bilməzdik. Bütün komandamız adından cənab Prezidenti təbrik edirik, təşəkkür edirik, bağrımıza basıb öpürük. Çox sağ olun, cənab Prezident!"

Tokioda Paralimpiya Oyunlarının davam etdiyini xatırladan AMPK prezidenti bildirib ki, idmançılarımız yarışların növbəti günlərində uğur qazanmaq üçün əllərindən gələni edəcəklər: "Paralimpiya Oyunları davam edir və bizim medal ümidlərimiz var. Millətimiz, vətəndaşlarımız, həmvətənlərimiz bizdən qələbələr gözləsinlər, bizi dəstəkləsinlər. Biz də öz növbəmizdə onları sevindirməyə çalışacağıq".

Xatırladaq ki, "Tokio-2020" Paralimpiya Oyunlarında ölkəmizi idmanın 6 növündə 47 kateqoriya üzrə rekord sayda - 36 idmançı təmsil edir.

XVI Yay Paralimpiya Oyunları sentyabrın 5-də təntənəli bağlanış mərasimi ilə sona çatacaq.

## Paracüdoçularımız daha 3 qızıl medal qazandılar

Əvvəli 1-ci səh.

Kişilərin 81 kq çəki dərəcəsindəki mübarizəsində Hüseyn Rəhimli 1/4 finalda Daniel Povell (Böyük Britaniya), yarımfinalda Min Li (Cənubi Koreya) ilə üz-üzə gəlib. Hər iki qarşılaşmada rəqibini məğlub edən təmsilçimiz həlledici görüşdə özbəkistanlı Davurxon Karomatovu sınağa çəkib. Ardıcıl üçüncü görüşdən qalib ayrılan həmyerlimiz Paralimpiadanı birinci yerdə tamamlayıb. Qadınların 57 kq çəkidəki yarışında təmsilçimiz Sevda Vəliyeva isə Dayana Fedossova (Qazaxıstan) və Zeynep Çeliki (Türkiyə) mübarizədən kənarlaşdırıb. O, bu qələbələrlə qızıl medal uğrunda döyüşə vəsiqə qazanıb. S.Vəliyeva həlledici görüşdə Parvina Samandarova (Özbəkistan) ilə üz-üzə gəlib. Güləşdən qalib ayrılan xanım idmançımız paralimpiya çempionu olub.







63 kq çəki dərəcəsində mübarizədə təmsilçimiz Xanım Hüseynova da ilk iki görüşdə qələbə qazanaraq finala yüksəlib. O, öncə yaponiyalı Hiroko Kudonu, ardınca çinli Yue Vanqı rəqibini məğlub edib. Təmsilçimizin finaldakı rəqibi İrina Husiyeva (Ukrayna) olub. Hüseynova bu dueldən də qalib ayrılaraq, qızıl medala sahib olub. Qeyd edək ki, daha öncə paracüdoçularımızdan Şəhanə Hacıyeva (48 kq) ilə Vüqar Şirinli (60 kq) qızıl, Namiq Abaslı (66 kq) bürünc medal qazanıb. Həmçinin üzgüçü Roman Saleh (100 m, arxası üstə üzmə) 1-ci, pauerliftinqçi Pərvin Məmmədov (49 kq) 3-cü yeri tutub.




## Daha bir idmançımızdan qızıl medal

Bu uğura yığmamızın atleti Həmid Heydəri imza atıb. O, nizəatma yarışında 51,42 m göstərici ilə bütün rəqiblərini qabaqlayıb.

Heydəri bu nəticə ilə həm Paralimpiadanın qızıl medalını qazanıb, həm də dünya rekordunu qazanıb.

## Tokio Paralimpiada Oyunlarında koronavirusa yoluxanların sayı 200-ü ötüb

Avqustun 28-nə olan son məlumata görə, Tokio Paralimpiada Oyunlarında koronavirusa yoluxanların sayı 200-ü ötüb.

AZƏRTAC Oyunların Təşkilat Komitəsinin saytına istinadla xəbər verir ki, şənbə günü yarışlarla əlaqəli daha 22 nəfərdə, o cümlədən 4 əcnəbidə COVID-19 aşkar edilib. Həmin 4 nəfərdən üçü yarışlarla əlaqəli əməkdaş, biri isə podratçıdır.

Yaponiya vətəndaşları olan digər 18 nəfərdən 13-ü podratçı, 2-si yarışlarla əlaqəli əməkdaş, 3-ü isə könüllüdür.

Rəsmi nümayəndələrin bildirdiyinə görə, 22 nəfərdən heç biri atletlər kəndində qalmayıb.

Beləliklə, Paralimpiya Oyunları ilə əlaqəli şəxslər arasında koronavirusa yoluxanların ümumi sayı 219 nəfərə çatıb.



## Azərbaycandan Rusiyaya səyahət edən şəxslər üçün yeni giriş qaydaları qüvvəyə minir

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, cari il 1 sentyabr tarixdən Azərbaycandan Rusiyaya yerinə yetirilən bütün reyslərdə yeni giriş qaydaları qüvvəyə minir.

Belə ki, həmin reyslərlə səyahət edən bütün sərnişinlər smartfonlarına "Путешествую без COVID-19" mobil tətbiqini yükləməlidirlər. Tətbiqə pasportun skan olunmuş surətini, habelə COVID-19 üçün PCR testinin nəticəsini yükləmək lazımdır

Tətbiq ödənişsizdir. "Путешествую без COVID-19" tətbiqini aşağıdakı keçidlər vasitəsilə yükləyə bilərsiniz: - iPhone üçün: https://apps.apple.com/app/id1541206996

- Android smartfonları üçün: https://play.google.com/store/apps/details?id=com.nocovid19.su&hl=az&gl=US
- Huawei smartfonları üçün: https://appgallery.huawei.com/#/app/C104343239

Tətbiqin istifadəsi aşağıda qeyd edilən sərnişinlər üçün məcburi deyildir:

- *Rusiya Federasiyasının vətəndaşları üçün;*
- *Azərbaycan ərazisindən tranzitlə keçən sərnişinlər üçün (Rusiya Federasiyasına yerinə yetirilən bütün marşrut üzrə aviabiletlər və (və ya) minik talonları mövcud olduqda) və ilkin yola düşmə ölkəsində testdən keçmiş olduqda.*



- *smartfonları olmayan uşaqlar və ya yaşlı əhali qrupu kateqoriyasından olan sərnişinlər QR-kodun təsdiqini onlarla birgə səyahət edən digər sərnişinin smartfonundakı tətbiqdə təqdim edə bilərlər.*

Rusiyaya səyahət edərkən PCR testi yalnız əvvəlcədən razılaşdırılmış tibb müəssisələrində keçirilə bilər.

Laboratoriyaların siyahısı ilə həm mobil tətbiqdə, həm də keçid vasitəsilə aviaşirkətin rəsmi internet səhifəsində tanış ola bilərsiniz: https://www.azal.az/az/information/covid-russia

Testdən keçərkən sərnişin Rusiyaya uçduğunu klinikaya mütləq bildirməli və xarici pasport təqdim etməlidir.

Tətbiq test əsasında hava limanında sərhəd nəzarəti məntəqəsində göstərməli olduğunuz QR-kod yaradacaqdır.

Testin nəticəsi barədə məlumat mobil tətbiqdə yaşıl QR-kod şəklində saxlanılacaqdır.

Bu kodu qeydiyyat masalarında, habelə Rusiyaya gəldikdə sərhəd keçid məntəqələrində təqdim etmək lazımdır.

Səyahət zamanı telefonunuzda texniki problemlər yarandığı halda, sərnişində PCR-testin kağız nüsxəsi olmalıdır.

Koronavirus infeksiyasına dair testi Rusiyaya uçmazdan əvvəl 72 saat ərzində vermək lazımdır.

"Путешествую без COVID-19" tətbiqini hazırlayan mütəxəsislər bildirirlər ki, ən yaxın zamanda bu tətbiqdə sərnişinlərin peyvənd olunması barədə məlumatlar da öz əksinin tapacaqdır.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Sosial şəbəkələrdə şəkilləri yayılan baxımsız vəziyyətdə olan alpaka Şamaxıdakı fermaya yerləşdirilib

Bir neçə gün öncə sosial şəbəkələrdə qapalı məkanda saxlanılan, baxımsızlıqdan arıqlamış alpaka şəkilləri yayılmışdı. Onun bu vəziyyətdə saxlanması haqlı olaraq insanların, heyvansevərlərin narazılığına səbəb olmuşdu. Artıq həmin alpakaya yardım edilib.

AZƏRTAC xəbər verir ki, yayılan şəkillərdən sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən həmin heyvanın olduğu zoobulvar ərazisinə baxış keçirilib və onun saxlanma şəraitinin qənaətbəxş olmadığı aşkar edilib. Alpakanın açıq hava şəraitində yaşamalı olduğu sahibkara bildirildikdən sonra onun şəxsi təşəbbüsü ilə heyvan Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Heydər Əliyev Fonduna təqdim olunub. Xüsusi avtomobillə Şamaxıda yerləşən Alpaka fermasına gətirilən erkək fərd xüsusi bölməyə yerləşdirilib.



Fermanın bələdçisi Səbinə Zahidova ilə söhbət zamanı bildirdi ki, alpaka bura gətirilərkən vəziyyəti ağırlaşmışdı: "Biz dərhal Almaniyadan baytar dəvət etdik. Heyvan tam müayinədən keçirildi. Çalışırıq ki, alpakanı normal vəziyyətə qaytaraq".

Almaniyalı baytar Yo Kalin isə deyib ki, alpaka çox arıqdır, dişləri də pis vəziyyətdədir. Bu da onun normal qidalanmasında problem yaradır. "Düşünürəm ki, vəziyyəti yaxşılaşacaq. Sağalması üçün əlimizdən gələni edəcəyik", - deyə o əlavə edib.

Bir müddət xüsusi bölmədə bəslənilən alpaka daha sonra digər alpakaların yanına buraxılacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Arzu Səmədovanın sözlərinə görə, heyvan təhvil alınandan sonra onun alpaka fermasına gətirilməsinə qərar verildi: "Gördüyünüz kimi, bu ferma açıq hava şəraitində yaradılıb və alpakanın yaşam yeri belə ərazilər olmalıdır. Alpaka 14 gün karantin şəraitində saxlanıldıqdan sonra açıq havaya çıxacaq və digər heyvanlar kimi aktiv həyat tərzinə davam edəcək".

Xatırladaq ki, təbiətdə alpakaların Suri və Huacaya adlı iki növü var. Şamaxıda isə Huacaya növü bəslənilir. Zahiri görünüşü ilə seçilən alpakalar insanları dişləmirlər və qonaqlardan məmnuniyyətlə yem qəbul edirlər.

Alpaka zahirən lamaları xatırladan Cənubi Amerika heyvanlarıdır.

## Müdafiə Nazirliyi: "Azərbaycan Ordusunun əsgəri xidmət etdiyi hərbi hissədə bədbəxt hadisə nəticəsində həlak olub"

Bəzi KİV-də və sosial şəbəkələrdə Şuşa şəhəri istiqamətində hərbi qulluqçumuzun şəhid olması ilə bağlı qeyri-dəqiq məlumat yayılıb.

Bununla bağlı Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, əsgər Həziyev Çingiz Ramin oğlu xidmət etdiyi hərbi hissədə baş vermiş bədbəxt hadisə nəticəsində həlak olub. İlkin araşdırmalara görə, hərbi qulluqçu intihar edib və bu, ailə-məişət problemləri ilə bağlıdır. Müdafiə Nazirliyi etik qaydalara riayət edərək hadisənin təfərrüatlarını açıqlamır.

Hazırda faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır. Müdafiə Nazirliyi bildirir ki, bəzi KİV həqiqəti kobud şəkildə təhrif edərək ictimaiyyəti çaşdırır və bununla da düşmənin maraqlarına xidmət etmiş olur. Nazirlik dəqiqləşdirilməmiş məlumatların yayılmasının yolverilməzliyini bir daha diqqətə çatdırır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Respublika üzrə Uşaq Stomatoloji Mərkəzinin kollektivi baş həkim Azər Əliyevə anası

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4940
Sifariş 1548
Qiymәti 40 qəpik